


## Rus ekspert: “Ermənistanın heç bir seçimi yoxdur, Qarabağ dastanı bitmişdir”

15

# Brüssel görüşü bütün qaranlıqlara aydınlıq gətirdi!



4

Səs
№ 061 (6502) 9 aprel 2022-ci il. Qiymәti 60 qәpik

# Batan Ermənistan xilas yolu axtarışında: Rusiya amilindən doğan təlaş və Qərbin qəzəbi



14

*Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlarına görə çoxsaylı beynəlxalq dairələr, təşkilatlar və eləcə də ayrı-ayrı Qərb dövlətləri tərəfindən çoxsaylı sanksiyalara, qətnamələrə məruz qoyulması uzun illərdir Moskva ilə strateji plan üzrə iqtisadi və hərbi müttəfiqlik edən, eyni zamanda, Rusiyanın Cənubi Qafqazdakı forpostu rolunu oynayan İrəvanı ciddi şəkildə narahat etməyə başlayıb.*



## “Rəsmi Moskva Qarabağla bağlı üçtərəfli sazişlərin yerinə yetirilməsini təmin edəcək”

3

*“Rəsmi Moskva Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Qarabağla bağlı üçtərəfli razılaşmalarının yerinə yetirilməsini təmin edəcək.” Bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistan XİN başçısı Ararat Mirzoyan...*

## Xankəndidə etirazlar başladı: ermənilər çıxış yolu axtarır



## “Erməni cəmiyyəti növbəti “Brüssel fəlakəti”ni yaşadı”



14

“Otən ilin noyabrında Soçidə keçirilən üçtərəfli görüşdə Ermənistanın ciddi müqavimətini qıran Azərbaycan Prezidenti dövlətimizin maraqlarına xidmət edən qərarların qəbuluna nail oldu”. Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib. Abutalıb Səmədovun sözlərinə görə, imzalanan bəyanatda ilin sonuna qədər delimitasiya üzrə ikitərəfli komissiyanın yaradılması nəzərdə tutulurdu:

## Rus ordusunda üsyan başladı: Putinin qərarı nə olacaq?





## Oyuncaqlar uşaqların psixologiyasına necə təsir edir?

11

Uşaq üçün oyuncaqlar nə vaxt alınmalıdır? Oyuncaq seçərkən nələrə diqqət edilməlidir? Körpələrin inkişafına şərait yaradacaq oyuncaqlar hansılardır? Oyuncaq alarkən diqqət etməli olduğunuz məqamlar bunlardır.



## Əslində, nə dəyişilməli idi: Məktəbli forması, yoxsa təhsil forması?

6

Yeni dərs ilindən məktəbli formalarının dəyişilməsi nəzərdə tutulur. Buna nə qədər ehtiyac vardı? Bu, nə qədər vacibdi? Bu suallara yəqin ki, evindən məktəbə 2-3 uşaq göndərən...

## Klopp: “Qvardiola dünyanın ən yaxşı məşqçisidir”

16

*“Liverpul”un baş məşqçisi Yurgen Kloppun fikrincə, hazırda dünyanın ən yaxşı məşqçisi Xosep Qvardioladır.*



# Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir



*Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvləri ilə görüşdə çıxışı zamanı idmançılarımızın böyük qələbə ilə qayıtmasından qürur duyduğunu deyib: "Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmişlər, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız.*



Beləliklə həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Əlbəttə ki, bir daha Azərbaycan güləşçilərimiz bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır".

## "YARIŞA ÇIXANDA UNUTMAMALIDIRLAR Kİ, MÜZƏFFƏR ÖLKƏNİ VƏ QALİB XALQI TƏMSİL EDİRLƏR"

Dövlət başçısı onu da vurğulayıb ki, bir müddət bundan əvvəl gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim, yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər: "Mən onları da gənclər arasında Avropa çempionatında birinci yerlə bağlı ürəkdən təbrik edərkən demişdim ki, onlar gələcəkdə də bizi sevindirməlidirlər, böyüklər arasındakı yarışlarda çıxış edərkən bu uğurları təkrar etməlidirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır". Prezident İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edərkən deyib ki, Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir.

Dövlət başçısı vurğulayıb ki, gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir: "Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır. Əminəm ki, Azərbaycan vətəndaşları - həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki sevinirik ki, siz buna nail olmusunuz. Bu, sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul - Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik. Çünki gənc nəsil yetişir, gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində, idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır".

## Rəsmi sənədlər

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarına və onların ailə üzvlərinə ayrılmış mənzillərin özəlləşdirilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir



Əvvəli-Səh-2

### “MƏHZ VƏTƏNPƏRVƏRLİK, VƏTƏNƏ OLAN SƏDAQƏT, FƏDAKARLIQ BİZİ QARABAĞIN AZAD OLUNMASI UĞRUNDA MÜHARİBƏDƏ İRƏLİYƏ APARIRDI”

”Əminəm ki, böyüklər arasında keçirilmiş çempionatda bizim idmançılarımız da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxırdılar və bu yüksək məsuliyyəti dərk edirdilər. Çünki doğrudan da, cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir”,-deyən dövlət başçısı söyləyib ki, vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı: ”Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı. Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir”. Əbəs deyil ki, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Avropa çempionatının iştirakçıları ilə görüşündə bir daha tarixi Zəfərimizdə gənclərin vətənpərvərlik hissinin, torpaq sevgisinin əsas olduğunu vurğuladı və qeyd etdi ki, güclü Ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir: ”Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır. Əminəm ki, Azərbaycan vətəndaşları - həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki sevinirik ki, siz buna nail olmusunuz. Bu, sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul - Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik. Çünki gənc nəsil yetişir, gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində, idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır”.

Dövlət başçısı Azərbaycanın gənclərinin hər sahədə öz gücü ilə rəqibini yerində oturtmağı bacardığını da deyib: ”Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə. Dinc insanlara qarşı terror əməllərinə əl atmışdır. Bizim şəhərlərimiz, dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutuldu, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak oldu. Amma mən o vaxt demişdim, hələ müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik”.

### ”BİZ DÜŞMƏNƏ DÖYÜŞ MEYDANINDA CAVAB VERƏCƏYİK. ELƏ CAVAB VERƏCƏYİK Kİ, ONLAR ƏBƏDİ BU DƏRSİ YADDA SAXLASINLAR”

Prezident İlham Əliyev onu da bildirib ki, bütün sahələrdə Azərbaycan gəncləri düşmənə həm də döyüş meydanında cavab verməklə ona əbədi dərs verdi: ”Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar. Mən keçirilmiş Avropa çempionatında da eyni xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti. Ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, bundan sonra da istənilən idman növündə”.

Prezident İlham Əliyev onu da söylədi ki, bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır: ”İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz”.

Bəli, Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir, çünki bayrağımız ucaldıqda, dövlətimizin nüfuzu daha yüksək zirvələrə doğru ucalır. Çünki idmanımızdakı nailiyyətlər qalibiyyət simvolumuzun təzahürüdür. Dövlət başçımızın vurğuladığı bu fikirlər uğurlarımızın tarixi Zəfərimizdən doğan növbəti qələbələrimizin müjdəçisidir və eyni zamanda, gücümüzün, qüdrətimizin bariz nümayişidir.

***RƏFİQƏ KAMALQIZI***

## Türkiyə XİN: ”Bölgədə sülh və sabitliyin yaranması üçün həyata keçirilən səyləri dəstəkləyirik”




Aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə işçi nahar formatında görüşü nəticəsində iki ölkənin xarici işlər nazirlərinə sülh müqaviləsi hazırlamağa başlanması məqsədilə təlimat verilməsindən və iki ölkə arasında aprel ayının sonunadək ortaq sərhəd komissiyasının yaradılması ilə əlaqədar razılaşmanın əldə olunmasından məmnuniyyət hiss edirik. AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyə Xarici İşlər Nazirliyinin bəhs edilən mövzu ilə bağlı açıqlamasında əksini tapıb.

Açıqlamada bildirilir ki, Türkiyə Respublikası bölgədə sülh və sabitliyin yaranması üçün həyata keçirilən səyləri dəstəkləməkdə və belə cəhdlərə fəal təsir göstərməkdədir.

## Sergey Lavrov: ”Rəsmi Moskva Qarabağla bağlı üçtərəfli sazişlərin yerinə yetirilməsini təmin edəcək”

***“Rəsmi Moskva Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Qarabağla bağlı üçtərəfli razılaşmalarının yerinə yetirilməsini təmin edəcək." Bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistan XİN başçısı Ararat Mirzoyan ilə Moskvada keçirilən görüşündə deyib. O qeyd edib ki, Moskva üçtərəfli sazişlərin yerinə yetirilməsini, o cümlədən Rusiya sülhməramlı kontingentinin mandata uyğun fəaliyyətini təmin edəcək.***



S.Lavrov bildirib ki, qarşıda Rusiya və Ermənistan rəhbərlərinin görüşü gözlənilir və xarici işlər nazirləri bu görüşə hazırlıq məsələlərini də müzakirə edəcəklər.

Rusiya XİN rəhbərinin sözlərinə görə, Moskva əsas müttəfiqi kimi müdafiə qabiliyyətini möhkəmləndirməkdə və sərhədlərinin müdafiəsində Ermənistana yardım göstərəcək. Bundan əlavə, S.Lavrov Rusiyanın Ermənistan iqtisadiyyatına investisiyalarının artırılmasına dair növbəti təkliflər paketi hazırladığını da diqqətə çatdırıb.

# Brüssel görüşü bütün qaranlıqlara aydınlıq gətirdi!

***Azərbaycanın beş bəndlik baza təklifinə Ermənistan lap əvvəldən "Qarabağ ermənilərinin statusu" kimi dırnaqarası məsələni əlavə etmək niyyətində olub və bu ölkənin sülh sazişi üçün ATƏT-in Minsk qrupuna müraciət etməsi də bu baxımdan təsadüfi sayılmır. Sözsüz ki, Qarabağda baş verən son proseslər, ermənilərin təxribatları fonunda Azərbaycan Ordusunun öz mövqelərini daha da irəli çəkməsi dırnaqarası "status" məsələsinin praktiki gündəmdən çıxarması qorxusunu ermənilərə yaşatdı və danışıqlar məsələsini dərhal gündəmə gətirməsi üçün Ermənistan əl-ayağa düşdü. Bəlli oldu ki, Ermənistan yenə də Avropa masasını fürsət olaraq görürmüş, lakin proseslər, ələlxüsus Brüssel görüşü bütün qaranlıqlara aydınlıq gətirdi. Bu da rəsmi Bakının növbəti diplomatik qələbəsidir.***





Rəsmi İrəvan Brüsseldə bir çox məsələlərin həllinə ümid etsə də, bir məsələni nəzərə almayıb ki, Azərbaycan üçün "status" məsələsi "qırmızı xətt" hesab olunur və rəsmi Bakı buna imkan verməz. Ermənistan indi məhz dırnaqarası "status" məsələsinə görə demək olar ki, ölmüş Minsk Qrupu formatının da dirildilməsini arzulayır, amma bunun da mümkünsüzlüyü günün reallığıdır və bu da səbəbsiz deyil. Məhz Ukrayna ilə Rusiya arasında başlayan müharibənin fonunda Minsk Qrupundan danışmaq gülünc səslənir. Çünki, bu qarşıdurmanın ardınca ABŞ heç zaman Rusiyanın hərhansı məsələdə iştirakını qəbul edə bilməz. Hətta, Fransa qəbul etsə belə, ABŞ-ın Cənubi Qafqazda maraqları olsa belə, Rusiyanın iştirakı Birləşmiş Ştatlar üçün qəbuledilən olmayacaq. ABŞ birmənalı şəkildə Rusiyanın iştirak edə biləcəyi masanı heç zaman, ələlxüsus bu ərəfədə, müharibə ərəfəsində qəti şəkildə dəstəkləməz. Bu da o deməkdir ki, Ermənistanın arzuladığı Minsk Qrupu formatı mümkünsüz məsələdir. Yəni, ermənilərin fürsət hesab etdikləri bu məsələ artıq bağlı məsələdir, artıq xülya olaraq belə qala bilmir və burada qaranlıq məqam qalmır.

Rəsmi Bakı üçün Brüssel görüşünün əhəmiyyəti olduqca böyükdür. Əvvəla, Azərbaycanın məhz münaqişənin bitməsi realığını ABŞ-ın da təşkilatçılığında iştirak etdiyi Avropa masasında yenidən qəbul etdirmək imkanı var. Beləki, 44 günlük müharibədən sonra Azərbaycanın yaratdığı reallıqlar göz önündədir və bunu ABŞ da, Avropa da görməməzlikdən gələ bilməz. Üstəlik işğaldan azad olunmuş ərazilərdə görülən quruculuq işləri, infrastrukturun, yüksək səviyyədə yaşayış şəraitinin yaradıldığı təkzibedilməzdir. Əsrin üçdə birinə yaxın müddət ərzində Ermənistanın işğal altında saxladığı ərazilərdə daşı daş üstündə qoymaması fonunda, Azərbaycanın cəmi bir il yarım müddətdə bu qədər işlər görməsi diqqətdən yayına bilməz və bütün bunlar münaqişənin bitdiyi anlamına gəlir ki, bunu hər kəsin qəbul etməsi gərəkir. Daha doğrusu, Brüssel görüşü zamanı məsələlərə yanaşma da təsdiq edir ki, bütün dünya üçün belə qaranlıq məqam qalmayıb və Azərbaycanın mövqeyi ədalətlidir və qəbuledilməndir.

Onu da nəzərə almaq lazımdır ki, indi Brüsseldə bir növ ölü kimi olan Minsk Qrupunun da, onun formatının da taleyi həll olunmaqdadır. Artıq qeyd etdiyimiz kimi, ABŞ bundan sonra Rusiyanın iştirak edəcəyi bir qrupun da, onun formatının da qəbul olunmasına qəti şəkildə razı ola bilməz. Belə olan halda isə, Avropa da bununla, yəni ABŞ-ın mövqeyi ilə razılaşmaq məcburiyyətində qalır, hərçənd Fransa bu formata can atsa belə. Bütün bunlar isə onu deməyə əsas verir ki, rəsmi Bakının bu formatın ümumiyyətlə gündəmdən çıxarmaq imkanı var və buna nail olunur da. Yəni, məhz sözügedən format və onun mümkünsüzlüyü barədə də qaranlıq heç nə qalmadı.

Didər tərəfdən də Ermənistanın sülh sazişi ilə bağlı manipulyasiyaları da müzakirə mövzusu kimi Azərbaycanın xeyrinədir. Bilirik ki, Ermənistan tərəfi dəfələrlə sözdə sülh sazişinə razılıq ifadə etsə də bu prosesi hər vasitə ilə gecikdirməkdə maraqlıdır. Bu işğalçı ölkə hər vəchlə sülh sazişinin vaxtını uzatmağa, yaxud bundan yayınmağa çalışır ki, bunu görməmək mümkün deyil. Məsələ burasındadır ki, Brüsseldə bu saziş, yəni sülh sazişi də diqqət mərkəzində oldu və Ermənistanın bu məsələdən yayınmaq cəhdləri artıq həmin dövlətin əleyhinə işləyir. Bir sözlə, Ermənistan sülh sazişinə razılaşmayacağı təqdirdə, Azərbaycan atacağı addımlarla bağlı Qərbdə alibi qazanmaq imkanı əldə edir. Bunu isə Ermənistan tərəfi yaxşı başa düşür. Təsadüfi deyil ki, indi Ermənistan mətbuatı bu barədə bar-bar bağırır və bildirir ki, Brüssel görüşü Ermənistanın ümid etdiyi bütün xüslayaların böş olduğunu ortaya qoydu və bu məsələ də aydın oldu, qaranlıq heç nə qalmadı.

Ermənistana məxsus mətbuat səhifələri yazır ki, ABŞ gərginləşməyə görə Azərbaycanın deyil, Ermənistanın məsuliyyət daşıdığı qənaətindədir. Əslində, ermənilərin belə bir qorxuya, kompleksə düşmələri səbəbsiz və əbəs yerə də deyil. Xatırladaq ki, ABŞ dövlət katibi Entoni Blinken Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı zamanı Kremlin Ukraynada törətdiyi iyrənc hərbi cinayətləri pisləyib, ABŞ və tərəfdaşlarının Rusiya Federasiyası, eləcə də onun əməkdaşlarının Ukraynaya qarşı əsassız müharibəyə görə məsuliyyət daşımaları barədə öhdəliklərini vurğulayıb. Bu, əslində çox vacib məqamlardan xəbər verir və bununla Blinken ABŞ-ın Ermənistandan, ermənilərdən nə gözlədiyini bəyan edir. Bir sözlə, Rusiyanın Ukraynaya qarşı müharibəsini Ermənistanın açıq şəkildə pisləməsi gözlənilir. Qeyd edək ki, bu zamana qədər Ermənistan üçün ümumi formulalardan birtəhər qurtulmaq mümkün idisə, indi bu heç də mümkün görünmür. Çünki Buçada baş verənləri bütün dünya gördü və dinc əhaliyə qarşı edilən cinayətlərə başqa ad vermək mümkün deyil və nə deyilsə belə artıq işə yaramır. Amerika tərəfi getdikcə Rusiyanın hərəkətlərini pisləmənin vacibliyinə eyham vurur və bu məsələdə Ermənistan qınanılır. Rəsmi Moskva da öz növbəsində Ermənistandan Rusiyanı dəstəkləməsini, onların Ukraynadakı hərəkətlərinə ermənilərin dəstək verməsini tələb edir və əks təqdirdə bu ölkəni nələr gözləyəcəyi barədə də xəbərdarlıqlar edir. Hətta indi ermənilər etiraf edirlər ki, Rusiyanın Ermənistana təzyiq etmək üçün ABŞ-ın təsəvvür belə etmədiyindən qat-qat artıq mexanizmləri, imkanları var. Amma Blinken bütün bunlara məhəl qoymayan kimi davranır və hətta nümayişkəranə şəkildə göstərir ki, Birləşmiş Ştatlar daha bundan sonra Ermənistanın, ermənilərin vəziyyətini nəzərə almaq, başa düşmək fikrində deyil. Bax elə bu fakt özü də ondan xəbər verir ki, Ermənistan ABŞ, Avropa və Rusiya arasında qalıb və bir zamanlar ermənilərin fürsət kimi dəyərləndirdikləri arzuları da yenə puç olmaqdadır. Ümumiyyətlə, indi erməni cəmiyyətinin bu zamana qədərki utopik düşüncələrinə son qoyuldu və onların düşüncələrində belə artıq qaranlıq heç nə qalmamalıdır.

Daha bir incə məqama diqqət edilməlidir ki, Birləşmiş Ştatların dövlət katibi, "indi regionda daha da gərginləşmənin vaxtı deyil", deyə vurğulayıb. Xatırladaq ki, dövlət katibi Blinken bunu Azərbaycan Prezidenti cənab İlham Əliyevlə söhbətində deməyib, məhz Ermənistanın baş nazirinə deyib. Belə olan halda, təbii ki, bu mesaj Azərbaycana aid ola bilməz. Deməli, bəlli olur ki, verilən mesaj birbaşa Ermənistana aiddir və Birləşmiş Ştatlar vəziyyətin gərginləşməsinə görə Azərbaycanı deyil, Ermənistan tərəfini cavabdeh hesab edir. Bir sözlə, bəlli olur ki, Ermənistan artıq başda ABŞ olmaqla, bütövlükdə Qərbin hədəfindədir və Brüssel görüşündə bu bir daha öz təsdiqini tapdı. Daha dəqiq, daha açıq şəkildə desək, regionda gərginləşmənin yaradılması, bunu hansı tərəfin yaratması da aydın şəkildə göstərilirsə, deməli, bu məsələdə də aydın olmayan, qaranlıq qalan heç nə qalmadı və Brüssel görüşü buna da aydınlıq gətirdi, hansıki Ermənistan tərəfi artıq yaxşı başa düşür ki, hərhansı gərginliyə görə üzərində böyük məsuliyyət var.

***İnam Hacıyev***

# Azərbaycan və İtaliya diplomatik münasibətləri: 30 illik tarixi yolda

*Azərbaycanın müstəqillik qazandıqdan sonra dünyanın bir çox ölkələri ilə qurduğu diplomatik münasibətlər qarşılıqlı əməkdaşlığa, dostluğa əsaslanır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur. Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin aradan qaldırılması kimi həyati əhəmiyyətli başlıca məqsədə xidmət edir.*



Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı münasibətlərini inkişaf etdirir. Mövcud münasibətlər ölkələr arasında bütün istiqamətlərdə, siyasi-iqtisadi, ticarət, qanunvericilik, o cümlədən mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlərin əldə olunmasına səbəb olub.

Dünya ölkələri sırasında İtaliya ilə Azərbaycan arasında olan diplomatik münasibətlərin də xüsusi yeri var. Belə ki, İtaliya ölkəmiz üçün mühüm tərəfdaşlardan birinə çevrilib. Bu diplomatik münasibətlər 30 illik bir tarixi əhatə edir. 1992-ci ilin may ayının 8-də qurulmuş diplomatik əlaqələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yüksələn xətlə inkişaf etmişdir.

1997-ci ilin mart ayında İtaliya hökuməti Cənubi Qafqaz ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda öz səfirliyini təsis etmişdir. 2003-cü ilin dekabr ayında Azərbaycan Respublikasının İtaliyada Səfirliyi təsis edilmişdir.

### AZƏRBAYCAN VƏ İTALİYA DİALOQUN İNKİŞAF ETDİRİLMƏSİNDƏ MARAQLIDIR

1997-ci ilin 25-28 sentyabr tarixlərində Ulu Öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafına təkan vermişdir. Ulu Öndər Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri iqtisadi münasibətlərin inkişafında xüsusi rol oynayıb. Bu səfər nəticəsində bağlanan "İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyanat", "İnvestisiyaların qorunması və həvəsləndirilməsi haqqında müqavilə" iki ölkə arasında iqtisadi münasibətlərin inkişafında xüsusi rol oynayıb. Qeyd olunan sazişlərdən başqa Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın "Eni-Acip" şirkəti arasında "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" sazişin əsas kommersiya prinsipləri və müddəaları barədə sənəd də imzalanıb. İkitərəfli əməkdaşlıq haqqında imzalanan sənədlər qarşılıqlı əməkdaşlığa söykənir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfərləri və imzalanan sənədlər qarşılıqlı əlaqələrin daha dərinləşməsində mühüm rol oynayır. 2005-ci ilin fevralında Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri ikitərəfli münasibətlərə xüsusi təkan vermiş və bu sahədə yeni mərhələnin başlanğıcını qoymuşdur. Səfər çərçivəsində Azərbaycan-İtaliya Birgə Bəyannaməsi qəbul olunmuş və iki ölkə arasında əməkdaşlığa dair aşağıdakı 8 sənəd imzalanmışdır. Hər iki ölkənin tarixində silinməz izlər qoyan bu səfərlər dövlətlərarası əlaqələri daha da genişləndirmişdir. Əlbəttə ki, Azərbaycan və İtaliya yüksək səviyyədə dialoqun inkişaf etdirilməsində maraqlıdırlar. Möhkəm təməllər üzərində qurulan Azərbaycan-İtaliya əlaqələri rəsmi səfərlər zamanı daha da möhkəmlənmiş oldu.

Son illərdə də ölkələrimiz arasında siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində böyük uğurlara imza atılıb. 2021-ci ildə Azərbaycan TAP qaz kəməri ilə İtaliyaya 7 milyard kubmetrə yaxın qaz nəql edib, bununla da Azərbaycan İtaliyanın qaz bazarında üçüncü tərəfdaş olub.

Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səylərinəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir. İtaliyanın 100-dən çox şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə Azərbaycanda italyanlar fəaliyyət göstərir.

Azərbaycan İtaliya ilə iqtisadi əlaqələrinə böyük diqqət yetirir və onların inkişafında və gücləndirilməsində maraqlıdır. Vurğulamaq yerinə düşər ki, son illər ərzində İtaliya davamlı olaraq Azərbaycanın xarici ticarət dövriyyəsinin ölkələr üzrə strukturunda birinci yerə sahib olan aparıcı ticarət tərəfdaşıdır. İtaliya ilə Cənubi Qafqaz arasında ticarət dövriyyəsinin 95%-i Azərbaycanı payına düşür. 2021-ci ilin yekunları üzrə bu göstərici təxminən $10 milyard təşkil edib. O cümlədən, Cənubi Qafqaza ixrac edilən İtaliya məhsullarının 50%-i Azərbaycanın payına düşür.

### MƏDƏNİ VƏ HUMANİTAR SAHƏLƏRDƏ MÖHTƏŞƏM LAYİHƏLƏR

Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir. Əlbəttə ki, Azərbaycanla İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda nümunələr var. Bu əlaqələrin qurulmasında Heydər Əliyev Fondunun da müstəsna rolu var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən İtaliyada həyata keçirilən layihələr bu ölkənin mədəni irsinin qorunması baxımından önəmlidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən, mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata keçirilib. Bəşəriyyət üçün önəmli dəyər olan Roma katakombaları Fondun dəstəyi ilə yenidən həyat qazanıb. Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası Müqəddəs Taxt-Tacın və Azərbaycanın müştərək layihəsinin tərkib hissəsidir.

Bu yaxınlarda Bakıda İtaliya-Azərbaycan Universitetinin təməli qoyuldu. Təməli qoyulan bu universitet Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliya Respublikasına dövlət səfəri zamanı əldə olunub. İtaliya-Azərbaycan Universiteti ADA Universitetinin bazasında fəaliyyət göstərəcək. Bu təhsil ocağının təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub. Burada təsis olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, o cümlədən şəhərsalma və landşaft memarlığı, dizayn, o cümlədən interyer dizaynı, sosial elmlər, italiyaşünaslıq, innovasiya və sahibkarlıq istiqamətləri üzrə təcrübə, nouhau, texnologiya və innovasiyaların tətbiq olunacağı elm və bilik ocağı olacaq.

### MÖVCUD MÜNASİBƏTLƏR İTALİYA ŞİRKƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIĞA YENİ İMKANLAR YARADIR

Azərbaycan və İtaliya beynəlxalq müstəvidə də daim bir-birini dəstəkləyib, iki ölkə arasında böyük etimad formalaşıb. 30 ilə qədər davam edən Qarabağ münaqişəsi zamanı da İtaliya beynəlxalq qanunlara əsaslanaraq ədalətli mövqe nümayiş etdirib. 44 günlük Vətən müharibəsində də yaşanan çətin vaxtlarda İtaliya Azərbaycanla həmrəylik nümayiş etdirdi. Məhz dostluğun nəticəsidir ki, İtaliya işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə cəlb edilən ilk ölkələrdəndir. İtalyan şirkətləri işğaldan azad olunan ərazilərimizin bərpasında da öz köməkliklərini əsirgəmirlər. Azərbaycanla İtaliya arasında mövcud siyasi münasibətlər və iqtisadi tərəfdaşlıq işğaldan azad olunmuş ərazilərin bərpasında İtaliya şirkətləri ilə əməkdaşlığa yeni imkanlar yaradır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iki ölkə arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair çoxspektrli planların yaradılması, yenidənqurma layihələrinin işlənməsi labüddür: "Bizim yeni infrastrukturun yaradılmasına - yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacımız var. Bunun səbəbi ermənilər tərəfindən hər şeyin dağıdılması, yerləyeksan edilməsidir. Buna dair kifayət qədər videomaterial var. Onlar vəhşi kimi davranmış və şəhərlərimizi darmadağın etmişlər. Bu da Azərbaycana qarşı olan təcavüzkar siyasətin bariz nümunəsidir". İtaliya şirkətləri ilə bir çox sahələrdə - şəhərsalma, ərazilərin minalardan təmizlənməsi, turizm, kənd təsərrüfatı kimi sahələrdə nəzərdə tutulan layihələrin həyata keçirilməsi dövlətlərarası münasibətləri daha da genişləndirəcəkdir.

İtaliya və Azərbaycan arasında Qarabağın enerji infrastrukturunun qurulması çərçivəsində əməkdaşlıq haqqında müqavilənin imzalanması bu istiqamətdə atılan ilk addım oldu. İtaliya şirkətləri Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərində fəal iştirak edir. İtaliyanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa olunmasında fəal iştirakı, iqtisadi layihələrin həyata keçirilməsində fəallığı iki ölkə arasında münasibətlərdə yeni müstəviyə yüksəlir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

## MEDİA-nın icraçı direktoru BDU-nun Jurnalistika fakültəsinin qonağı olub



***Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov və Audiovizual Şuranın sədri İsmət Səttarov Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin qonağı olublar. BDU-nun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, görüşdə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və professor-müəllim heyəti iştirak edib.***



Qonaqlar əvvəlcə Jurnalistika fakültəsinin Tədris tele-radio studiyasında efir və montaj otaqları, audiovizual studiyaların və BDU TV internet kanalının işi ilə tanış oldular. Audiovizual Şuranın sədri İsmət Səttarov studiyanın praktik imkanlarından və yaradıcı mühitdən məmnunluğunu ifadə edərək müştərək layihələrin həyata keçirilməsini təklif edib. Bildirilib ki, Tədris tele-tradio studiyasının maddi-texniki potensialı əsasında müxtəlif formatlı proqramların hazırlanması mümkündür. Ölkənin radio və televiziya kanalları ilə əməkdaşlıq perspektivli layihələrin reallaşmasına imkan verəcək.

Üçtərəfli əməkdaşlıq imkanlarını yüksək qiymətləndirən MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov tələbələrin praktik fəaliyyətinin stimullaşdırılmasından danışıb. O, gələcəkdə MEDİA-nın dəstəyi ilə Jurnalistika fakültəsinin tələbələri üçün müsabiqə, treninqlərin və müxtəlif praktik seminarların təşkili barədə fikirlərini bildirib. BDU-nun prorektoru Əliş Ağamirzəyev və Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev əməkdaşlığın jurnalist kadrların yetişdirilməsi istiqamətində faydalı nəticələr verəcəyinə əmin olduqlarını ifadə ediblər.

***Yeni dərs ilindən məktəbli formalarının dəyişilməsi nəzərdə tutulur. Buna nə qədər ehtiyac vardı? Bu, nə qədər vacibdi? Bu suallara yəqin ki, evindən məktəbə 2-3 uşaq göndərən valideynlərin hər biri cavab axtarır. Axı yaxından tanıdığımız ailələr var ki, bir məktəbli formasını uşaqlarının hər biri üçün istifadə edir. Böyük uşağa yenisini alır, balaca isə böyüyün əyninə kiçilmiş formanı geyinir. Və yaxud da qohumlar arasında da məktəbli forması paylaşmanın şahidiyəm. Sürətlə böyüyən uşaqların formaları heç də atılmır, istifadəsiz qalmır, onları qardaş bacının, bacı qardaşının, digər qohumlar bir-birinin uşaqlarına verirlər. Paltarlarda bəzi dərzi işləri görülür, beləliklə, tam yararsız olana qədər geyinilir. Çünki bu paylaşmaların da özünəməxsus səbəbləri var.***



# Əslində, nə dəyişilməli idi: Məktəbli forması, yoxsa təhsil forması?



Təhlil

Dünyada baş verən ərzaq qıtlığı, qlobal bahalaşma, bunun bizim ölkəmizə də təsiri, nəzarətin düzgün qurulmaması səbəbindən qiymətlərin hər gün yox, hər saat qalxdığı bir dövrdə insanlar böyük çətinliklərlə üz-üzə qalıblar. İşsizlik problemi isə yaşayış tərzini gündən-günə çətinləşdirir. Aylarla iş axtaran, tək özü çalışan ailə başçıları var. Onlar ailənin gündəlik ehtiyaclarını ödəyə bilmirlər. Gündəlik süfrələrinə normal qida məhsulları qoya bilmirlər. Kommunal ödənişləri çətinliklə ödəyirlər. Hələ kirayədə yaşayan, xəstəsi olan, hər ay apteklərdən eyni reseptləri alanlar var. Belə olan halda ailədən 2 uşaq məktəbə göndərən valideyn məktəbli forması ala biləcəkmi? Axı bir uşağın məktəbə getməsi üçün tək məktəbli forması tələb olunmur. Bunun çantası, ayaqqabısı, kitab-dəftəri də var. Belə olan halda məktəbli formasının dəyişilməsi heç də imkansız ailələr tərəfindən razılıqla qarşılanmır.

Həm də düşünürəm ki, formanın məzmuna heç bir təsiri olmayacağı təqdirdə biz məzmunun qeydinə formadan çox qalmalıyıq. Belə ki, məktəblərimizdə təlim və təhsil formasının o qədər yeniləşməyə ehtiyacı var ki. Götürək təhsil formasını. Bir neçə illər bundan əvvəl məktəblərimizdə tətbiq olunan yeni təhsil proqramlarını (kurikulumları). Düzdür, təhsil ekspertləri bu təhsil metodu haqqında ağızdolusu danışdılar. Bu yeniliklə şagirdlərin biliklərə hərtərəfli və dinamik bir şəkildə yeyələnəcəklərindən, müasir dünyagörüşlərinin müsbət yöndə formalaşacağından əminliklə danışdılar. Lakin gəlin etiraf edək ki, bu çətin tədris metodunun hələ də öhdəsindən gələ bilməyən müəllimlər var. Müəllim-şagird-valideyn üçbucağı adlandırılan bu metod təhsilalmada rolu olan bu üç varlığı nəinki bir-birinə yaxınlaşdırdı, əksinə uzaqlaşdırdı. Çünki əksər valideynlər 10 il bundan sonra da kurikulum təhsil metodunun nə olduğunu anlamayacaqlar. Belə isə bu təhsil forması nə verir gələcəyimiz olan gənclərə? Kurikulumun əsas xüsusiyyəti şagirdin beynini həddindən artıq çalışdırmaqdır. Bu isə onun çox yorulması ilə nəticələnir. Bəzi yaxşı tərəflərinin olduğunu etiraf etməyə bilməsək də, bu üsul şagirdi müəyyən bilikləri göz yaddaşında saxlayan əzbərçiyə çevirir. Sanki tapmaca tapmağa bənzəyən bu metod geniş bilikverməni aradan çıxarıb mücərrəd bir formaya salıb.

Bu gün övladlarımızın yazı qabiliyyəti ilə bağlı həyəcan təbilini çalmağın vaxtıdır. Çünki bugünkü gəncliyin yazı mədəniyyəti yox dərəcəsindədir. İnşa, ifadə, imlaların orta məktəblərimizdə yoxa çıxması kütləvi savadsızlığın yaranmasına səbəb olub. Bu gün istənilən məktəbin yuxarı sinfinə yazı tapşırığı verib, bunu sübut etmək olar.

Müasir təhsil forması məktəbliləri mütaliədən də uzaqlaşdırıb. Hansı ki, bütün məktəblərdə kitabxanalar yaradılıb, dövlətimiz tərəfindən həmin kitabxanalara minlərlə kitab hədiyyə edilib. Gəlin görək bu kitabxanaların qapısını açan varmı? Kitabxanalarda çalışanlar şagirdlərin mütaliəyə cəlbi üçün hansı işləri görürlər?

”Bu gün Azərbaycan təhsilinin taleyi repetitor fəaliyyəti ilə bağlıdır” fikrini tam əminliklə söyləmək olar. Xüsusi hazırlıq kursları, repetitor fəaliyyəti bir il tam dayandırılsa, bunun nəticəsini həmin ilin qəbul imtahanlarında hər kəsin bariz şəkildə görəcəyinə əminəm. Bu da məktəblərdə dərslərin zəif formada keçirilməsini təsdiq edən amildir. Hansı ki, 20-30 il əvvəlin şagirdləri heç bir repetitorsuz ali təhsil müəssisələrinə qəbul olunurdular. Onlar həmin şagirdlərdir ki, bugünkü cəmiyyətimizin aparıcı qüvvələridirlər. Onlar bütün fənləri oxuyanlar, hər elmdən xəbərdar olanlardır. Bəs müasir dövrümüzdə necə, seçdiyi qrup fənlərindən başqa bir fənni oxuyan şagird varmı? Bu, faciədir. Müasir təhsil formasının gözəgörünməyən tərəfidir. Lakin yeri gələndə də düz göz önündədir. Gəlin yüzlərlə yuxarı sinif şagirdinə sual verək, görək qrup fənlərindən başqa fənn kitablarını əlinə alan varmı? Bu birtərəfli təhsil formasını dəyişdirməyin vaxtı çoxdan çatmayıbmı?

Məktəblərimizdə ”Müəllimlər günü”, ”8 Mart” bazarlığı formasını necə, dəyişmək fikrində olan varmı? Bəli, bunun üçün qadağalar qoyulmuşdu, eşitmişdik, bilirdik. Lakin qadağalar bu bazarlığın sadəcə formasını dəyişib, mahiyyət eynilə qalmaqdadır. Belə ki, əvvəllər açıq şəkildə olan bazar indi bir qədər qapalı şəklə salınıb. Amma fakt budur ki, bazar var. Aztəminatlı ailələrin narazılıqla qarşıladığı, həmin ”əlamətdar” günlər bazarlığı yaxınlaşanda qarnına qara sancılar dolan insanlar var. Hələ uşaqlardan sinfin bəzi ehtiyacları üçün yığılan pulları demirəm. Bu yaxınlarda məktəblərimizdən birində valideyn yığıncağı olacaqdı. Tanıdığım valideyn həmin yığıncağa özü gedə bilmədi, anasını göndərdi. Nə üçün? Çünki həmin məbləği neçə vaxtdı ki, verə bilməmişdi, üz-üzə gəlməkdən çəkinirdi.

Bu gün təlim prosesinin də düzgün qurulmamasına əksər məktəblərdə rast gəlmək olar. Tənəffüs vaxtı şagirdlərin dəhlizlərdə hərəkətinə diqqət verən varsa, dediklərimi təsdiqləyər. Divarlardakı ayaq ləkələri, stol-stullara endirilən zərbələrin nəticələri də bu deyilənlərdən xəbər verir. Hələ dərsdən sonra küçəyə çıxıb evə yollanan şagirdlərin hərəkətlərini, çıxardıqları səsləri demirəm. Bütün bunlardan danışmaq üçün saatlarla vaxt, yazmaq üçün neçə-neçə səhifə lazımdır.

Yəni gələcəyimiz üçün hazırladığımız uşaqlarımızın tədris və təlim prosesinə belə biganə yanaşıb, lakin onların geyiminin qeydinə qalmaq, bəzi hallarda isə məktəbin rəyi ilə hansısa bir formaya keçidin vacibliyini iddia etmək bütün bu problemlər fonunda çox absurddur. ”Əvvəl evin içi, sonra çölü” deyib atalarımız. Evin çölü məktəbli formasıdırsa, içi tədris, təlim prosesidir. O gözəl, səliqəli, müasir görüntülü geyimin içərisində diqqətli, savadlı, sabahımız ola biləcək uşaqlar yetişdirə bilməyəcəyiksə, məncə bu uşaqlar köhnə formaları geyinməyi hələlik haqq edir.

Yeni məktəbli formasına keçidlə əlaqədar belə bir arqument də ortaya qoyulmuşdu ki, guya köhnə formalar uşaqları incidir, narahat edir. Bəs elə isə ötən illərdə bu uşaqlar həmin formalardan necə istifadə edə biliblər. Gəldi, gəldi yeni formaya keçid mərhələsində köhnə formalar uşaqları incitməyə başladı.

Mövzu ilə bağlı müqayisəli məsələlər çoxdur. Müqayisə etdikcə də ardı gəlir. Lakin belə bir deyim də var, insanı geyimi ilə qarşılayıb, ağlı ilə yola salarlar. Bu nöqteyinəzərdən məktəblərimizdə geyim forması, yoxsa tədris-təlim forması yenilənməli idi, sual doğurur. Çünki bu geyim forması ilə məktəblərimizin qapılarını üzlərinə açdığı uşaqların oradan hansı savad, ağıl, dərrakə ilə çıxması daha vacib, daha aktualdır.

**Mətanət MƏMMƏDOVA**

# Ermənilərin işğalçılıq təfəkkürü ”milli ənənə” olaraq yaşadılır




*Gallup: "Ermənistanın 63,5% vətəndaşı "DNR" və "LNR"in tanınmasına müsbət yanaşırlar"*













30 il ərazilərimizi işğal altında saxlayan, torpaqlarımıza qarşı təcavüz siyasəti yürüdən Ermənistanın bu gün separatçı ”DNR” (”Donetsk xalq respublikası”) və ”LNR”in (”Luqansk xalq respublikası”) tanınmasına dəstək göstərməsi, əslində, təəccüblü görünməməlidir.

O cümlədən, əgər biz bu gün işğalçılıq siyasətinə görə yalnız Ermənistanın əvvəlki və sonrakı rəhbərliklərini ittiham ediriksə, bu məsələdə erməni xalqının da bir çox hallarda həmin siyasətə dəstək göstərdiyini qeyd edə bilərik. Və bu sübut özünü növbəti dəfə nümayiş etdirib.

### Azərbaycanlılardan fərqli olaraq, daim qonşularının torpaqlarına göz dikən ermənilər əllərinə düşən hər imkanlarında işğalçılıq faktoruna, separatçılıq siyasətlərinə dəstəklərini ifadə edirlər

Məhz 44 günlük Zəfər yürüşümüzdən sonra azad edilən ərazilərimizdə başladılmış və bu gün də sürətlə həyata keçirilən nəhəng bərpa işləri də sübut edir ki, həmin torpaqların sahibi məhz Azərbaycan xalqıdır və əlbəttə ki, xalqımız torpaqlarının işğala uğramasının nə olduğunu da yaxşı bilir, ona görə də erməni cəmiyyətindən fərqli olaraq daim həqiqətin yanında dayanır və təcavüzkarlıq siyasətini daim pisləyir, lənətləyir. Yəni azərbaycanlılardan fərqli olaraq, daim qonşularının torpaqlarına göz dikən ermənilər əllərinə düşən hər imkanlarında işğalçılıq faktoruna, separatçılıq siyasətlərinə dəstəklərini ifadə edirlər.

Elə Gallub ictimai sorğu mərkəzinin keçirdiyi növbəti sorğunun nəticəsi də bunu kifayət qədər sübut etməkdədir. Belə ki, Ermənistandan minlərlə kilometr uzaqda olan Ukrayna torpaqlarında təcavüz nəticəsində qurulmuş ”DNR” və ”LNR” adlı separatçı qurumlarının tanınması yönündə Ermənistanda 2-4 aprel arasında verilən suallara cavab verən erməni ictimaiyyətinin münasibəti belədir:

Ermənistanın 63,5% vətəndaşı Rusiyanın ”DNR”i və ”LNR”i tanımasına müsbət yanaşırlar. SİA xəbər verir ki, Bunu Gallub sorğu mərkəzinin Ermənistan üzrə təmsilçisi Aram Navasardyan Sputnik-Armeniya media qurumuna deyib.

Onun sözlərinə görə, sorğuda iştirak edən respondentlərin 22,2%-i suala cavab verməkdə çətinlik çəkiblər, 4,8%-i mənfi cavab veriblər, lakin Ermənistanın adıçəkilən separatçı rejimləri tanıması ilə bağlı sorğuya cəlb edilən ermənilərin 44,3%-i müsbət yanaşıblar. 28,2% erməni mənfi cavab verib, 27,6%-i isə cavab verməkdə çətinlik çəkiblər.

Digər məqam isə belədir - erməni əhalisinin 45,8%-i Rusiyanın Ukraynada keçirdiyi hərbi əməliyyatlara haqq qazandırır, 14,7%-i isə cavab verməkdə çətinlik çəkiblər.

”Rusiya-Ukrayna hərbi münaqişəsinin nəticəsi necə olacaq?” sualına cavab verən erməni respondentlərinin verdikləri cavablar isə faiz etibarı ilə bu cürdür:

53,5%-i bildirib ki, Rusiya qalib olacaq.

Rusiyanın Ukraynaya məğlub olacağını isə cəmi 2,4%-i bildirib.

16,3% erməni cavab verməkdə çətinlik çəkib.

Ermənilərin 41,6%-i nüvə müharibəsinin baş verəcəyini, 50,7%-i isə əks fkirlərdə olduqlarını deyiblər.

Cənubi Osetiya və Abxaziya işğalında ermənilərin rolu danılmazdır və bu gün onlar Gürcüstanın Cavaxetiya bölgəsinə də iddialarını gizlətmirlər!

Onu da xatırlada bilərik ki, erməni xalqı zamanında Gürcüstanın ayrılmaz ərazisi hesab edilən Cənubi Osetiya və Abxaziyanın da işğalını dəstəklədiyini ifadə edib. Hətta işğal zamanı ermənilərin ”Baqramyan” adlı silahlı terror dəstəsi dinc gürcü xalqının bu ərazilərdən qovulması yönündə qanlı faciələrin iştirakçısı olublar.

Və hazırda Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan ermənilər bu əraziləri ”qədim erməni torpağı” adlandırmaqla açıq şəkildə ərazi iddiaları ilə çıxış edirlər. Gürcüstanla yanaşı, Türkiyəyə, İrana qarşı da ərazi iddiaları olan ermənilər bu mənfur siyasətlərini ”milli ənənə” olaraq istifadə edirlər.

### Olmayan ”Artsax”a erməni iddiası - bu siyasətə birdəfəlik son qoymağın zamanıdır!

Beləliklə, bu gün Qarabağı ”Artsax” kimi gündəmə sırımağa cəhdlər göstərən ermənilərin hətta zaman-zaman ”Rusiyaya birləşmək” kimi sərsəm iddialarını irəli sürmələri artıq onların belə bir iyrənc ”ənənələrinə” son qoymaq tələbini zərurətə çevirir.

Əgər zamanında bu kirli siyasətin qarşısı tamamilə (!) alınmasa regionun sülh və əmin-amanlığa nail ola bilməsi üçün çətinliklər yarana bilər. Bəlkə də bu gün ermənilərin işğalçılıq, istilaçılıq, təcavüzkarçılıq siyasətləri ilə çıxış etmələri kənardan bir çoxlarına istehza xarakteri kimi görünə bilər. Lakin belə olan halda, son 30 ildə Qarabağda baş verənləri xatırlatmağın kifayət qədər səmərəsi var. Necə deyərlər, çomağı əldən yerə qoymaq olmaz!

**Rövşən RƏSULOV**

# Kəlbəcər-Ağdaban: 30 ilin əvvəlində daban, sonunda göz yarası

*1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum etdilər. Məqsəd Kəlbəcəri ayaqları olan Ağdabanla vurub onu işğal etmək idi. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarlı meşələrə, dağlara üz tutdular. Kənd sakinləri tamamilə müdafiəsiz qalmışdı, çünki onları müdafiə edən kiçik dəstə əvvəlcədən ermənilər tərəfindən məhv edilmişdi. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırdı, 779 nəfər dinc sakinə divan tutdular.*



Onlar yaşlı, qoca, qadın, uşaq demədən dünyada görülməmiş vəhşiliklə dinc əhalini qətlə yetirərək soyqırım aktı törətdilər. Bu faciə zamanı 32 nəfər amansızcasına qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmışdır. Həmçinin, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 5 nəfər isə girov götürülmüşdür. Bu müsibətin qarşısında- yaralarından qan axan, evləri viran edilmiş ağdabanlılar doğma kəndlərini tərk etmədilər. Dabanından vurulan Kəlbəcərin Ağdaban camaatı yaralarından axan qanı torpağa hopdura-hopdura kəndlərini yenidən bərpa edib yaşamağa başladılar. Lakin bir il sonra onları yenidən bundan da dəhşətli faciənin gözlədiyindən xəbərsiz idilər.

## Blitzkriq əməliyyatı və ya faşist köpəyi Njde

Bir il sonra ermənilər Kəlbəcərin işğalına yenə də Ağdabandan başladılar. Bunun üçün onlar "Blitzkriq" adlı əməliyyat hazırlamışdılar. Blıitzkriq alman sözüdür. Blitz (ildırım), krieg (müharibə) sözlərinin birləşməsindən yaranıb. Mənası sürətli qələbə qazanmaq üçün gərgin hərbi kampaniya, "şimşək müharibəsi"dir. Bu kampaniya XX əsrin əvvəllərində alman feldmarşalı Alfred fon Şliffen





tərəfindən yaradılıb. Blitzkriq zirehli tanklar və hava dəstəyi də daxil olmaqla, hərəkətli, manevr güclər istifadə edərək düşmənə sürətli, fokuslanmış bir zərbə vurmaq üçün hazırlanmış hücum müharibəsi metodunu təsvir etmək üçün istifadə olunan bir termindir. Belə bir hücum ideal olaraq əsgər və topçu itkisini məhdudlaşdıraraq sürətli bir qələbəyə səbəb olur. I Dünya müharibəsində almanlar blitzkriqi Polşa, Norveç, Belçika, Hollandiya, Fransaya, II Dünya müharibəsində isə Rusiyaya tətbiq etmiş və uğurlu nəticələr qazanmışlar. Maraqlıdır, bunu ermənilər Kəlbəcərə necə tətbiq etmişdilər? Sovetlər Birliyinin 15 müttəfiqindən biri Azərbaycan idisə, digəri də Ermənistan idi. Nəzərə alsaq ki, Azərbaycan Ermənistandan bütün dövrlərdə zəngin bir ölkə olub, 70 il sonra 1990-cı illərdə Azərbaycan iqtisadi cəhətdən o vəziyyətdə idisə, gör indi Ermənistan hansı vəziyyətdə imiş. Yox, unutduğum fərqli bir məsələ var: erməni yaltaqlığı, riyakarlığı. Həmin dövrdə Sovetlər Birliyi özünü yenidən dirçəltmək üçün ermənilərdən hərtərəfli istifadə edirdi. Elə blitzkriq əməliyyatı da ermənilərə havadarlarının növbəti mərhələsi idi. Faktlar da bunu təsdiq edir: Rusiya mənbələrinə görə, Ermənistanda yerləşdirilən 128-ci alayın (7-ci Rusiya Ordusu) dağ qoşunları Kəlbəcəri blitzkriq əməliyyatı ilə ələ keçirdi. İlk ağır müqavimətdən sonra Azərbaycan qoşunları tezliklə dağıldı və rayon mərkəzi 1993-cü il aprelin 3-də işğal olundu.

Hadisələrə bu günün prizmasından yanaşdıqda ermənilərin Kəlbəcərdəki alman "Blitzkriq" əməliyyatı ilə bağlı belə bir qənaətə gəlirəm ki, onlara bu əməliyyat yaxın ulu babaları Qaregin Ter-Artyunyanın (Njde) uzun illər alman faşistlərinə köpək kimi xidmətindən ərməğandır. Maraqlıdır, Sovetlər Birliyinin tör-töküntüsü onları almanlara satan Njdenin tör-töküntüsünə niyə bu dəstəyi verirdilər? Məqsəd hər zamankı kimi çox aydındır... 30 il əvvəlin fonunda o da aydın göründü ki, Azərbaycan 30 ilə yaxın bir dövrdən sonra düşmənə "Blitzkriq" əməliyyatından da güclü həmlələr etdi.

## Kəlbəcərin sahibi gələcəkdi...

1993-cü ildə Kəlbəcər işğal olundu. 70 il əsarətdə yaşayan, sərvətləri mənimsənilən, əlləri bomboş olan bir xalqın əlindən alındı böyükmiqyaslı torpaqları, eləcə də Kəlbəcəri. Bu xalqın igid övladları çıxdı düşmənin qarşısına. Çünki tarixən Azərbaycan oğulları canından keçib, lakin düşmən qarşısından qaçmayıb. Son nəfəsinədək torpaq uğrunda vuruşub. Lakin əliboş, silahsız nə etmək olardı? "Blitzkriq" əməliyyatının qarşısında ov tüfəngi nə iş görə bilərdi? Heç nə. Ona görə də nəticə belə oldu: Kəlbəcərin 58 mindən artıq əhalisi minillərboyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 321 nəfər əsir düşdü və ya girov götürüldü, 511 nəfər vəhşicəsinə qətlə yetirildi. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min qaramal, 500 min baş qoyun-quzu, 100-lə maşın, texnika və sair talan edildi, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşındı.

Kəlbəcər bu taleyi yaşadı, bəli. Lakin bu, o demək deyildi ki, Azərbaycanın bu qədim torpaqları erməni tapdağı altında qalacaqdı əbədiyyən. Bu, o demək deyildi ki, evindən-eşiyindən didərgin salınan minlərlə insanın bu taleyi ilə barışılacaqdı. Milyardlarla manatlıq sərvətin dağıdılmasına göz yumulacaqdı. Gələcəkdi zamanın da sahibi, torpaqların da. Və gəldi də. 30 ildə bu ölkənin sərvətlərinin əsas hissəsi ordu quruculuğuna ayrıldı, 30 il əvvəlki uğursuzluğu uğurla əvəz etmək üçün. Torpaqları yağıdan azad etmək üçün. İnsanların üzərindən qaçqın, köçkün, yurdsuz adını götürmək üçün. Onları yurdlarına geri qaytarmaq, torpaqların ətrini yenidən qoxulatmaq üçün. Ölkəmizin Prezidenti, Ali Baş Komandanımız, hər bir azərbaycanlının qürur yeri cənab İlham Əliyevin həm hərbi, həm də siyasi bacarığı ilə tariximizə 44 səhifə əlavə olundu. Bu 44 səhifəyə 200-300 minilliyə bərabər tarix yazıldı. 10 noyabr Bəyanatı ilə Qarabağ probleminə son qoyuldu. İndi bütün dünya Azərbaycandan danışır, bizə heyranlıqla baxır, bizdən çox məqamları öyrənməyə çalışır.

## Azərbaycanın gözmuncuğu, Qobustanın əkizi Kəlbəcər

Nəinki Azərbaycanın, bütün Qafqazın gözmuncuğu, Qobustanın əkizidir Kəlbəcər. Ərazisinə və əhalisinin sayına görə Qarabağ və ətraf rayonların ən böyüyü olan bu yurd yeri təbii sərvətləri, gözəllikləri, dağlıq, qeyri-adi əraziləri, çayları, düzləri ilə bir füsunkarlıq abidəsidir, canlı təbiət muzeyidir. 30 min ildən çox tarixi olan yaşayış məskənləri, məscidləri, VI-VII əsrlərə aid Xudavəng məbəd kompleksi, XIII əsrə məxsus Arzu xatın məbədi, silsilə alban məbədləri, Hacı Əsəd, Hacı Əhməd, Ağ körpüləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri Kəlbəcərin qədimliyinin təsdiqidir.









Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcərdə "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir. Kəlbəcərin səthi dağlıqdır, o, Murovdağ, Şahdağ və digər yüksəklikləri sinəsinə bənd edib, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinə qoyun açıbdır bu yurd yeri. Ən böyük çayımız Tərtər və onun iki böyük qolu, Bazarçayın da mənbəyi, ulu öndərin rəhbərliyi ilə tikilən Sərsəng Su Anbarı Kəlbəcərin ərazisindədir. Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlarda alp və subalp çəmənlikləri geniş yer tutur. Meşələrinin ümumi sahəsi 32774 hektardır. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və sair Kəlbəcər faunasının zənginliyidir. Və qızıl yataqları... Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir, məlumdur. Zod qızıl yatağının istismarı eramızın III minilliyinə təsadüf edir. Söyüdlü sahəsində 1970-1980-ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağaralar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə "Şəhrizər", yəni qızıl şəhəri adı ilə məşhur olub. Kəlbəcər, bütövlükdə, bu təbii sərvətləri, təbiəti, tarixi ilə Azərbaycanın göz muncuğudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var".

## Kəlbəcər bir çox məqamları təsdiqlədi

"Dostu dar gündə tanıyarlar" məsəli dilimizin deyimidir. Lakin "düşməni dar ayaqda tanıyarlar" deyimini eşitməmişdim. Sual oluna bilər ki, düşmən elə düşməndir də, onun nəyini tanımaq lazımdır ki? Bəli, düşmən düşməndir, lakin hər düşmənin də öz kökünə məxsus xisləti var. Sən demə, belə bir deyim var imiş, lakin biz bunu canlı olaraq görəcəkmişik. Bunu Kəlbəcərin ermənilər tərəfindən boşaldıldığı vaxt gördük. 27 il əvvəl işğal edərək xarabalığa çevirdikləri, bu xarabalıqlar arasında bəzi evlər saxlayıb, kəlbəcərlilərin zəhmətlə, nə kimi arzularla tikdikləri evlərinə sığınan ermənilər rayonu tərk edərkən həmin evləri, meşələri, həyətlərdəki ağacları yandırdıqları zaman gördük o deyimi. Bununla da, öz kimliklərini bir daha sübut etdilər. Sübut etdilər ki, düşmən olmaq bir ayrı məsələdir, xislətsiz, xaraktersiz olmaq bir başqa məsələdir. Göstərdilər, biz də gördük. Bizim xalqın nümayəndələri ermənilərin Gəncəyə atdıqları ballistik raket nəticəsində dağılmış evlərindən çıxarkən Azərbaycan bayrağını sinəsinə sıxıb çıxdıqları halda, ermənilərin nələri sinələrinə sıxıb Kəlbəcəri tərk etdiklərini də gördük. Evləri yandırmaqda məqsədləri nə idi bu bədbəxtlərin, görəsən? Düşünürdülər ki, kəlbəcərlilər qayıdıb onların murdar nəfəsləri çökmüş evlərdə yaşayacaqlar. Əsla. Əvvəllər bədxah qonşularımız azərbaycanlılara qonaq gələndə onun istifadə etdikləri qabqacağı atarmışlar. Oturduqları döşəkçənin üzünü çıxarıb yuyub, salavatlayıb, sonra yenidən istifadə edərmişlər. İndi o evlərdəmi yaşayacaqdıq? Ermənilərin murdar nəfəsləri çökmüş divarların arasındamı yaşayacaqdı kəlbəcərlilər? Yandırdılar, dağıtdılar və 3-5 ildən sonra o torpaqlarda yaradılanları da seyr edəcəklər.

## Kəlbəcər cənnətə çevrilir...

30 ilin əvvəlində düşmən tərəfindən dabanından yaralanan, 30 ilin sonunda isə düşmənin gözünü çıxararaq onun göz dağına çevrilən Kəlbəcərin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qalacaqdır. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox dəyərli cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki, bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır".

Ötən il Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulmasına başlanılması, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının fəaliyyətə başlaması, Prezident cənab İlham Əliyevin sərəncamına əsasən 72,8 kilometr uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolunun tikintisinə başlanması, bu yol üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlinin qoyulması, İstisuya əvvəlki şöhrətini qaytarmaq üçün 51 kilometr uzunluğunda İstisu-Minkənd yolunun çəkilməsi dövlət başçısının Kəlbəcərə səfəri zamanı söylədiyi "Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir" dəyətrli fikirlərindəki kimi qurulur, yaradılır, cənnətə çevrilir.

Bəli, biz Kəlbəcərə qayıdırıq. Ata-baba yurdumuza, əzəli torpaqlarımıza qayıdırıq. Bu xalq XXI əsrdə yazdığı qəhrəmanlıq dastanı ilə - "Qarabağ" dastanı ilə o torpaqlara qayıdır. Dövlət-xalq birliyi, lideri ilə, şücaətlə, rəşadətlə, şəhidləri, yaralı qaziləri, 30 ilədək yurd təşnəli insanları ilə erməni qəsbkarlarından geri aldığı torpaqlara qayıdır. Orada şəhidlərinin qanı axmış torpaqları qoxulamağa, o torpaqlarda azan səsini dinləməyə, öz ata-babasının məzarını ziyarət etməyə, o torpaqlara yeni həyat verməyə qayıdır. Bir də ona görə qayıdır ki, Kəlbəcər Qarabağdır, Qarabağ Azərbaycandır!

*Mətanət Məmmədova*

# “Ermənistan bu gün dalana dirənmiş vəziyyətdədir”

*“Trend" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktorunun müavini, siyasi ekspert Sahil Kərimlinin SİA-ya verdiyi müsahibəni təqdim edirik.*



**- Bildiyimiz kimi Brüsseldə üçtərəfli görüş baş tutdu. Brüssel görüşünün görünən və görünməyən tərəfləri nələrdir?**

- Hesab edirəm ki, artıq Ermənistanın başqa yolu yoxdur. Çünki Ermənistan çox yaxşı başa düşür ki, sülh danışıqları prosesinə başlanılmalıdır. Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təkliflər var. Bu maddələr nəzərə alınaraq sülh prosesi başladılmalıdır. Ermənistanın bugünkü vəziyyəti məlumdur. Ermənistan bu gün dalana dirənmiş bir vəziyyətdədir. Bu səbəbdən Ermənistanın yeganə çıxış yolu razılaşmalara əməl etməkdir. Çünki Ermənistanın gələcəyi bu razılaşmaların həm siyasi, həm iqtisadi, həm də siyasi regional baxımından necə icra olunmasından asılıdır. Burada həmçinin Avropa İttifaqının da öhdəliyi var. Əlbəttə ki, bu razılaşmalar Avropa İttifaqı səviyyəsində baş tutub. Gələcəkdə ən önəmli məqamlardan biri ondan ibarətdir ki, biz artıq danışıqları heç bir dövlətin müdaxiləsi olmadan həyata keçirəcəyik. Məlumdur ki, hansısa bir üçüncü, dördüncü tərəf danışıqlar prosesində iştirak etdikdə öz maraqlarından çıxış edir. Bu da proseslərin ləngiməsinə, hər hansı bir problemin yaranmasına səbəb olur. Əgər danışıqlar tərəflər arasında yəni birbaşa Azərbaycan və Ermənistan arasında aparılarsa, hesab edirəm ki, bu da çox müsbət nəticələrə gətirib çıxara bilər. Brüssel görüşünün nəticələri Azərbaycan üçün olduqca qənaətbəxşdir.

**- Brüssel platforması sülhün tezliklə əldə olunmasında real görünürmü?**

- Əlbəttə ki, birmənalı olaraq bu barədə fikir bildirmək çətindir. Amma bir məqamı xüsusi vurğulamaq lazımdır ki, Avropa İttifaqının prezidenti Şarl Mişel bəyanatında çox əminliklə bildirdi ki, biz artıq proseslərə başlamışıq, çox müsbət razılaşmalar əldə olunub. Şarl Mişelin bəyanatlarına istinadən desək, hansısa müsbət gedişlər gözləmək olar. Amma biz dəfələrlə Ermənistan tərəfinin verdiyi sözlərdən döndüyünün şahidi olmuşuq. İstənilən halda istər Avropa İttifaqı, istər Rusiya tərəfi bu məsələnin həll olunmasının uzadılmasına nə qədər çalışsalar da, Azərbaycan tərəfi heçnə itirmir. Sülh danışıqlarının başlanılması, sərhədlərin müəyyən olunması, kommunikasiyaların açılması, mehriban qonşuluq münasibətlərinin qurulması Azərbaycandan daha çox Ermənistana lazımdır. Bunu Ermənistan da çox yaxşı başa düşür. Bu gün Ermənistan cəmiyyəti, Ermənistan hakimiyyətində olan qüvvələr də çox yaxşı başa düşürlər ki, Azərbaycanın irəli sürdüyü təkliflər daha çox Ermənistanın xeyrinə olan təkliflərdir.

**- Ermənistan bu məsələlərdə nə dərəcədə səmimidir?**

- Səmimi görünmək üçün müstəqil olmaq lazımdır. Təəssüf ki, bu gün Ermənistan nəinki müstəqildir, heç daxili siyasət yürüdə bilmir. Gah Rusiyaya, gah da Qərbə meyllənir. Bu da əlbəttə ki, Ermənistan dövləti üçün yaxşı heçnə vəd etmir. Qeyd etdiyim kimi Azərbaycanın burada itirəcəyi heçnə yoxdur. Hazırda gedən proseslərdən Ermənistan nəticə çıxarmalıdır.

**- Əgər, Azərbaycan ilə Ermənistan arasında sülh razılaşması olmasa, yəni Ermənistan tərəfindən hər hansı bir təxribata əl atılarsa, Azərbaycan bir güllə atmadan Fərrux ssenarisini digər istiqamətlərdə də davam etdirə bilərmi?**

- Əlbəttə ki... İlk gündən cənab Prezident İlham Əliyev vurğulayıb ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Ordusunun gücünü, qüdrətini və Ermənistan ordusunun necə rəzil vəziyyətə düşdüyünü bütün dünya gördü. Əgər, Ermənistan tərəfindən hər hansı bir revanşist addım atılarsa, qanunsuz erməni silahlı dəstələrinin təxribatları olduğu halda onlar dərhal susdurulur. Hesab edirəm ki, növbəti günlərdə daha çox sülh prosesinin şahidi olacağıq. Ermənistan çox gözəl başa düşür ki, onun başqa çıxış yolu Azərbaycan ilə sülhdən, ərazi bütövlüyünə qarşılıqlı hörmət, sərhədlərin müəyyənləşdirilməsindən keçir.

**- İndiki halda Ermənistan tərəfi sülhə gəlmirsə, bunu Rusiya istəyir, yoxsa Qərb?**

- Ümumiyyətlə burada hər bir ölkənin marağı var. Burada Rusiyanın öz marağı var. Bu proseslər ona görə uzun çəkəcək ki, bu gün Rusiyanın başı Ukraynadakı hərbi məsələlərə qarışıb. Amma Avropa İttifaqı da öz mövqeyini müdafiə etməlidir. Əgər, burada hər hansı bir razılıq varsa, danışıqlar baş tutubsa, Avropa İttifaqı Ermənistana öz təsirlərini göstərməlidir.

**- ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycana ikili mövqeyi nədən qaynaqlanır?**

- Azərbaycana ikili yox, bir neçə mövqe sərgiləyirlər. Nə vaxta qədər bu ikili standartlar davam edəcək, gün gələcək Azərbaycan ərazilərindən terrorçu qruplarını təmizləməklə bağlı antiterror əməliyyatlarını davam edəcək. Vaxtilə Birinci Qarabağ müharibəsi dövründə ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş və ya itkin düşmüş şəxslər barəsində heç bir məlumat verilməyib. Hazırda Fərrux yüksəkliyində də araşdırmalar aparılır. Burada nə qədər insan qalıqları aşkarlanıb. Bu, Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan xalqına qarşı törədilmiş növbəti soyqırımıdır. Ermənistan bu razılaşmalara əməl etməlidir və onun başqa çıxışı yoxdur.

***Arzu Qurbanzadə***



## Jirinovski öldüsə, yaşasın yeni “Jirinovski” deyiləcəkmi?

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Yəqin ki, çoxlarınız ”Kral öldü, yaşasın kral!” deyilən ifadə ilə tanışsınız. Əslində, köhnə ifadədir, amma bu gün də işlək vəziyyətdə qalmaqdadır. Uzun illər Azərbaycan xalqına, eləcə də Türk dünyasına, hətta digər xalqlara qarşı xüsusi aqressiyası ilə seçilən, şovinizm və ultramillətçilik xüsusiyyətləri ilə məşhur olan Vladimir Jirinovskinin ölümü demək olar ki, kimsədə ürək yanğısı yaratmadı. Onun ölümünə kədərlənənlərin isə kimlərdən ibarət olduğunu bəri başdan ehtimal etmək çətin deyildi...***

Koronavirusun ölüm pəncəsindən çıxa bilməyən Jirinovski bəlkə də elə sanırdı ki, o əbədi yaşayacaq və istədiyi xalqı, milləti özünün zəhərli dili altına salıb çeynəyəcək. Amma hər şey heç də onun istədiyi kimi getmədi, o öldü, bəlkə də gəbərdi!

Yeri gəlmişkən, Jirinovskinin ölümü rəsmən təsdiqlənənə qədər onun ölümü barədə bir neçə dəfə informasiyalar yayıldı. Məhz bu məlumatların vaxtından əvvəl yayılması da göstərdi ki, əslində onun bu dünyadan köçməyini arzu edənlər nə qədər çox imiş...

Bəli, bəlkə də düşmən münasibətində olan istənilən şəxsin ölümünü arzulamaq humanizm cəhətindən, yaxud etik baxımdan doğru hesab edilə bilməz, amma həmin insanın nələr dediyini, nələr düşündüyünü təsəvvüründə canlandırarkən bu fikirlərə tamamilə əks fikirlər meydana çıxmağa başlayır. Əgər Jirinovski vaxtilə Azərbaycan xalqını ”qoyun sürüsü” ifadəsi ilə təhqirə məruz qoyubsa, əgər Jirinovski ”Türk qanı daşıyan bütün millətlər yer üzündən məhv edilməlidir və onların qanları üzərində böyük Rusiya qurulmalıdır” fikirlərini dilinə gətiribsə, əgər Jirinovski ”Erməni xalqı Rusiyanın ən güclü silahıdır və bu silahı düşmənlərimizə (!) qarşı uğurla istifadə etməliyik” sözlərinin sahibidirsə nəyə görə də bu axmaq təfəkkürlünün ölümünə və ya gorbagor olmasına sevinməyək?!

Bəlkə də o Rusiyada ”patriot” hesab edilə bilər və bəlkə də o biri dünyaya köçməsinin ardınca onun adına Moskvada, Sankt-Peterburqda, hətta İrəvanda küçələr, prospektlər qoyula bilər və bəlkə də abidəsi də ucaldıla bilər, amma bütün bunlar onun barəsində real düşünənlər üçün ”0” təsiri bağışlayacaq. Ona görə ki, Jirinovski bunların heç birinə layiq deyil və olmayıb da!

Bir çoxlarınız yəqin ki, Jirinovskinin Ukrayna xəritəsini əks etdirən torta necə həvəslə bıçaq salıb, onu bölməsi kadrlarını izləmişik. Həmin kadrlarda o ukraynalılara qarşı daha hansı təhqirləri ünvanlamır, daha hansı həqarətli fikirlərini ifadə etmir? Buna görəmi Jirinovskinin ölümünə ürək yanmalıdır?

Və ən əsası, Jirinovski Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini, təcavüzkarlığını dəstəkləyirdi. O, zaman-zaman ”qəhrəman erməni xalqı öz tarixi haqqını tələb edir və mübarizə aparır”, sözlərini işlədərək açıq-aşkar istilaçılıq mövqeyini ortaya qoymuşlardan biridir. Bu ünsür I Pyotrun ”Konstantinopol vəsiyyətini” də tez-tez xatırladaraq Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edirdi.

Bunların hər biri faktlardır və internet resurslarında onun daha hansı axmaq düşüncələrə sahib olması barədə çoxsaylı dəlillər mövcuddur. Jirinovski öz çevrəsində tərbiyəsiz, oxucularımızdan dönə-dönə üzr istəyirəm, pedofil (uşaqbaz) və manyak olaraq tanınırdı və belə olan halda, ”Jirinovski öldüsə, yaşasın yeni ”Jirinovski” deyilsə belə, onu əvəzləyəcək birinin onun qədər ola biləcəyinə inanmaq bir az çətin olur. Çətin olur, fəqət mümkündür! Əgər bu gün Jirinovskini Delyagin kimi sərsəm şovinist, Solovyov kimi qatı irqçi və millətçi, Milonov kimi ucuz ermənipərəst əvəzləyərsə, bundan qətiyyən təəccüb etməyəcəyəm. Təəssüf ediləcək məsələ isə budur ki, bu gün Rusiyada belə ünsürlərin sayı get-gedə artır və onların hər birinin zəhərli düşüncələrində ayrı-ayrı jirinovskilər yatırlar. Bu isə təhlükəli bir haldır, bu insanlar üçün deyil, Rusiya üçün və biz bu gün həmin halın şahidlərinə çevrilməkdəyik...

Və beləliklə, Jirinovskiyə Allah rəhmət eləməsin, yeri cəhənnəm, odunu isə bol olsun deməkdən başqa çarə də qalmır...

# “Əxlaqi dəyərləri aşındıran gecə klublarına yol vermək olmaz”

***“Gecə klublarının cəmiyyətimizə necə zərbə vurması ilə bağlı danışmaq çox həssaslıq tələb edir. Bu gecə klublarının fəaliyyətindən asılıdır. Cəmiyyətimizdəki mənəvi dəyərlərə zərbə vuran istənilən fəaliyyət arzuolunmazdır. Bu birmənalı olaraq belədir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.***

Onun sözlərinə görə, hansı cəmiyyətdə ki mənəvi dəyərlər öndə oldusa, o cəmiyyət özünü tənzimləyir və tərəqqi baş verir: ”O cəmiyyətdə ki, mənəvi dəyərlər arxa plana keçirsə, burada günü-gündən qarşıdurma yaranır. Ona görə də əgər gecə klubların fəaliyyəti mənəvi dəyərlərin aşınmasında rol oynayırsa, çox diqqətli olmaq lazımdır. Bu cəmiyyətdə arzuolunan hal deyil. Ölkədə humanitar siyasət belə olmalıdır ki, bu məsələlər aydın şəkildə başa düşülə bilsin. Kimsə deyə bilər ki, müasir ölkələrin hamısında gecə klubları var və bu insanların tələbatıdır. Amma bu cəmiyyətimizdə öz əksini elə tapmalıdır ki, hər hansı bir mənfilik olmasın”.

Əhməd Qəşəmoğlu sözlərinə belə davam edib: ”Mənfi və müsbət tərəflərinə gəldikdə isə bəzi insanlar bura dincəlmək üçün gedir. Belə yerlərdə çox mədəni mühit olmalıdır. Mən bu klubların fəaliyyəti ilə bağlı xeyli məlumatlıyam. Əsas məsələ isə bu klublarda nəyin baş verməsidir. Əxlaqi dəyərləri aşındıran gecə klublarına yol vermək olmaz.



Bəs, insanların hamısı bura sırf əylənmək üçün gəlir? Əylənmək sözünün özünün də böyük izaha ehtiyacı var. Kim əylənməyi necə başa düşür? Bu əylənmək əxlaqi-məməvi dəyərlərin aşınmasına, müxtəlif xəstəliklərin yayılmasına xidmət edirsə burada yaxşı bir şeydən söhbət gedə bilməz”.

***Ayşən Vəli***

# Oyuncaqlar uşaqların psixologiyasına necə təsir edir?

***Uşaq üçün oyuncaqlar nə vaxt alınmalıdır? Oyuncaq seçərkən nələrə diqqət edilməlidir? Körpələrin inkişafına şərait yaradacaq oyuncaqlar hansılardır? Oyuncaq alarkən diqqət etməli olduğunuz məqamlar bunlardır.***





### Oyuncaq uşağınızın yaşına uyğundurmu?

Bir yaşlı uşaqlar üçün güzgülər, mobil telefonlar daha maraqlıdır. Onlar əsasən tuta, itələyə, çəkə, çeşidləyə və növlərinə görə təsnif edə bildikləri oyuncaqları xoşlayırlar. Onlar istedad tələb edən oyunlara hələ hazır deyillər. Oyuncağın uşağınızın yaşına uyğun olub olmadığını anlamağın ən yaxşı yolu onun etiketinə baxmaqdır. Uşağınızın qabiliyyət və inkişaf tempini də nəzərə almaq lazımdır.

Yalnız uşağınızın beyin gücünü artırmaq üçün oyuncaqlar almayın. Heç bir oyuncaq bunu təmin etmir. Oyuncaq sadəcə əyləncəli ola bilər. Gənc körpələr üçün görmə, eşitmə, toxunma və əl-göz koordinasiyasını yaxşılaşdıracaq, böyük uşaqlara yeriməyi, tullanmağı, tarazlığı və fiziki dünyanı öyrədən oyuncaqlar seçilə bilər.





### Oyuncaqlar təhlükəsizdir?

Uşağınızın hansı yaşında olmasından asılı olmayaraq, yalnız təhlükəsizliyinə əmin olduğunuz oyuncaqlar alın. Onu 3 yaşına çatana qədər uda biləcəyi kiçik oyuncaqlardan uzaq tutun. Onların oyuncaqlarının möhkəm və yuyula bildiyinə əmin olun və onları mütəmadi olaraq yuyun.

Bəyənmədiyiniz oyuncağı övladınıza almayın. Oyuncaq silahlar, partlayan oyuncaqlar və hətta su tapançaları kimi belə oyuncaqların evinizə girməsinə icazə verməyin. Bəzi qız oyuncaqları da verdikləri mesajlara görə sizi narahat edə bilər. Bura makiyaj məhsulları, fiziki xüsusiyyətləri ön plana çıxaran paltarlar daxildir. Unutmayın ki, siz onları qadağan etsəniz belə, uşağınız onları dostunun evində tapıb oynaya bilər.

Oyuncaq alarkən nələrdən çəkinmək lazımdır?

Qurğuşun: İnanmaq çətin olsa da, bir çox oyuncaqda qurğuşun var və qurğuşun ciddi zəhərlənməyə səbəb ola bilər. Bu zəhərlənmələr böyrəyi zədələyə bilər və inkişafdan geri qalmağa səbəb ola bilər. Məlum olub ki, ABŞ-da hər 3 oyuncaqdan 1-də orta və yüksək səviyyələrdə kadmium, civə və digər potensial təhlükəli kimyəvi maddələr var.

### Çin istehsalı olan plastik oyuncaqlar

Bir neçə il əvvəl Çində istehsal edilən oyuncaqların tərkibində qurğuşun boyası olduğu aşkar edilərək təxminən 9 milyon oyuncaq ləğv edilib. Çin istehsalı olan oyuncaqları almaq məsləhət deyil. Çünki Çində keyfiyyətə nəzarət digər ölkələrlə müqayisədə daha zəifdir. Oyuncaqların arxasında harada istehsal edildiyi yazılıb, baxsanız, Çin istehsalı olan oyuncaqları almaqdan qaçarsınız.

PVC (Polivinilxlorid): Bu geniş istifadə olunan plastikin tərkibində vinilxlorid, dioksin, ftalat kimi zərərli kanserogen kimyəvi maddələr var. Onlar astma, allergiya və reproduktiv problemlər yaradır. Bu maddə tez-tez oyuncaqlarda görünür. Lakin etiketdən PVC-nin istifadə edildiyini anlaya bilərsiniz.

BPA (Bisfenol A): Bu kimyəvi bir çox plastik məhsulda olur və uşağın inkişafına təsir göstərə bilər. Bundan əlavə, diqqət pozğunluğu, erkən yetkinlik, piylənmə kimi pozğunluqlara səbəb olur. Qətiyyən istifadə etməyin.

### Körpə üçün hansı oyuncaqlar almaq olar?

100 faiz PVC-siz etiket: Tərkibində bu plastik olmadığına zəmanət verən məhsulu rahatlıqla ala bilərsiniz.

Taxta və ya bambuk oyuncaqlar: Taxta oyuncaqların tərkibində heç bir kimyəvi plastik yoxdur. Bunlar uşağınız üçün sağlam oyuncaqlardır.

Tərkibində üzvi pambıq olan oyuncaqlar: Pambıq oyuncaqlar, xüsusən də üzvi olanlar körpəniz üçün çox təhlükəsizdir.

Qız uşaqları daha çox gəlinciklər, çay və qəhvə dəstləri ilə evcilik oyunu oynayırlar, oğlan uşaqları isə daha çox oyuncaq maşın və silaha maraq göstərir.

ARAŞDIRMA

*Ardı Səh. 12*

# Oyuncaqlar uşaqların psixologiyasına necə təsir edir?









Əvvəli-Səh-11

Oğlanlar gəlinciyi əllərinə alanda, qızlar isə maşınlara maraq göstərəndə, ümumiyyətlə, ailələrində qorxu hissi yaranır. "Bu uşağa nə olub, yoldaşlarının oynadığı oyuncaqlarla niyə oynamır. Problem var" kimi düşüncələr yaranır.

Bəs, oyuncaq seçimində cinsiyyətçi yanaşmalar uşaq psixologiyasına necə təsir edir? Seksist oyuncaqlar uşağın inkişafına zərər verirmi? Ailələr uşaqlarına gender fərqlərini necə izah etməlidirlər? Bir çox ailələri maraqlandıran bu suallara türk mütəxəssis cavab verib.

### Oyuncaqların cinsi var?

Türk mütəxəssis, Psixoloq Berk Karaoğlu məsələ ilə bağlı belə münasibət bildirib: "Uşaqlarda sağlam cinsi kimliyin inkişafı üçün qız və oğlan oyuncağı ayrı-seçkiliyi olmamalıdır. Uşaq istənilən oyuncaqla məhdudiyyətsiz oynayanda bu, sağlam şəxsiyyət inkişafından xəbər verir. Oyuncaqlarda cinsiyyətçi fərqlər və ya məhdudiyyətlər qoyularsa, uşaqların cinsi kimliyinin inkişafında problemlər yarana bilər. Uşağın davranışını məhdudlaşdırmaq onun oyunlar vasitəsilə qazanacağı bacarıqlara mane ola bilər. Əgər siz valideyn olaraq övladınızda hansı davranışı məhdudlaşdırmağa çalışsanız, əksinə, uşağınızı həmin davranışa sövq edə bilərsiniz.

### Məsələn, qız oyuncağı ilə oynayan bir oğlana necə reaksiya vermək olar?

Oğlanın qız oyuncağı ilə oynamasına müdaxilə edilməməlidir. Uşaqlar real həyatı oyunlarla canlandırırlar. Bunun ona qadağan edilməsi onu daha cəlbedici edə bilər və zaman keçdikcə uşaq körpələrdən başqa oyuncaqlara marağını itirə bilər. Unutmayın ki, uşağa bir davranış və ya nəsihət verərkən uşağa o vəziyyətin məntiqi səbəbini izah edə biləcək səviyyədə olmalısınız.

### Qızların maşın və silah kimi oyuncaqlarla oynamasına necə reaksiya vermək olar?

Eyni şəkildə qızların oyuncaq seçimlərinə müdaxilə edilməməli və ya məhdudiyyət qoyulmalıdır. Uşaqlar oyunlar vasitəsilə bir çox bacarıqlar əldə edə bilərlər. "Qızlar maşınla oynamır" kimi reaksiyalar verilməməlidir. Uşaqların məhdudiyyətsiz oyunlar vasitəsilə özlərini ifadə edə bilmələri sağlam inkişaf üçün çox vacibdir. Bunlardan başqa həm qızlar, həm də oğlanlar üçün şiddətə səbəb olan və ya qəzəbli davranışlar nümayiş etdirən silahlarla oynamaq tövsiyə edilmir".

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, həkim və ekspertlərin fikirlərini öyrənib.

**Mütəxəssis pediatr Yüksel Hüseynli:** "Plastik əsaslı maddələrin sərtliyini azaltmaq,elastikliyini artırmaq üçün zərərli bir maddə olan fitalat plastik oyuncaqların istehsalında istifadə olunur. Cinsiyyət və sinir sistemi inkişafı problemləri, hormonal pozğunluqlar, allergiya və astma kimi xəstəliklərə səbəb olduğu, eyni zamanda kanserogen təsirlərinin olduğu aşkarlanmışdır.

Uşaq oyuncaqlarında istifadə olunan digər bir maddə qurğuşundur ki, bu da böyrək zədələnməsi, öyrənmə və böyümədə gecikmə və qurğuşun zəhərlənməsi kimi fəsadlar verə bilir. Yalama və dişləmə ilə oyuncaqları, əşyaları kəşf etməyə çalışan balaca körpələr asanlıqla qurğuşunun təsirinə məruz qala bilirlər.

Yumşaq, tüklü oyuncaqlar nə qədər sevimli, maraqlı görünsələr də bir o qədər "mikrob yuvası"dırlar. Çətin təmizlənən bu oyuncaqlar havada olan toz, ev gənələri üçün ideal yerləşmə yeridir. Allergiya, astma tətikləyicisi olmaqla yanaşı, üzərlərində olan göz, burun kimi xırda və asan qopan əşyaları uşaqlar uda bilər və boğulma ilə nəticələnə bilər. Allergik uşaqlardan uzaq tutulmalıdır.

Yüksək səsli, musiqili oyuncaqlar uşaqlar üçün nə qədər maraqlı olsalar da, qəbuledilən standartların üzərində səs çıxaran oyuncaqlar uşaqların qulağına zərər verə bilər.

Oyuncaq seçimində valideynlər diqqətli olmalı, tanınmış markaların, üzərində etiketi olan, gigiyenik normalara cavab verən, asan yuyula bilən, üzərində xırda parçacıqlar olmayan oyuncaqlara üstünlük verməlidirlər. Qiyməti ucuz olan, bazarlarda, dəzgahlarda, açıq havada satılan oyuncaqlar əksərən gigiyenik normalara cavab vermir. Bunun üçün də, CE işarəsi daşıyan məhsullara üstünlük verməlidirlər. Bu işarə məhsulların insan, heyvan və ətraf mühit baxımından sağlam və etibarlı olduğunu göstərən Avropa Birliyi Yeni Yanaşma Direktivlərinə cavab verən uyğunluq işarəsidir".



**Psixoloq Leyla Fətəli:** "Uşaqlar üçün zərərli oyuncaqlar dedikdə, bu oyuncaqlar uşaqların yaş həddinə görə dəyişir. Yəni, 0-1 yaş uşaqlara dəmir və taxta oyuncaqlar alına bilməz. Bu uşağa allergiya verməyən parçalardan və keyfiyyətli plasmasdan hazırlanan oyuncaqlardır.

2 yaş yarımdan sonra bu oyuncaqlar taxta və səsli oyuncaqlara çevrilə bilər. Onda öncə isə daha çox yumuşaq oyuncaqlar məsləhət görülür.

Boyanmış oyuncaqlar məsələsinə gəldikdə isə bunun əleyhinəyik. Bu çox zərərlidir. Biz daha çox taxta oyuncaqların tərəfdarıyıq. Bunu da uşaq 3 yaşını keçdikdən sonra anlaya bilər.

0-2 yaş aralığındakı uşaqlara taxta, dəmir və xırda hissəcikli pazllar təhlükəlidir. Həmçinin, bu yaş aralığındakı körpələrə heyvan səsli oyuncaqlar almaq olmaz. Bu onlarda qorxu və travma yaradır".



**AİB sədri Eyyub Hüseynov:** "Keyfiyyətli və keyfiyyətsiz oyuncağı ayırd etmək üçün bir çox üsullar var. İlk öncə istehlakçı, alıcı dükana girəndə dükandan pis və plastmas qoxusu gəlirsə belə dükandan üz çevirib getmək lazımdır. Uşaq oyuncaqlarından heç bir qoxu gəlməməlidir.

İkincisi ağ dəsmalı, yaxud da tənzifi yaş edib uşaq oyuncağına sürtsünlər. Əgər rəng verirsə belə uşaq oyuncaqlarından imtina etmək lazımdır. Çünki rənglərin tərkibində ağır metallar var, uşaqların əlləri ilə lamisə orqanlarına keçib onları tədricən zəhərlənməyə məruz qoya bilər.

Gəlincikdirsə onun saçının tüklərini çəkmək lazımdır, əgər qopursa imtina etməliyik. Əgər oyuncağın üzərində iti elementlər varsa belə oyuncaqlardan imtina etmək lazımdır.

Əsasən oyuncaqlar yumşaq, bərk və taxta materiallardan olur. Lakin bütün hallarda rəngləyicilərdən istifadə olunur. Ona görə də rəng amilinə xüsusi fikir verilməlidir ki, rəng çıxmasın.

Vətəndaşlar bilməlidirlər ki, oyuncaqlar məcburi sertifikatlaşdırılan mallar siyahısındadır. Nazirlər kabinetinin 343 saylı qərarına görə oyuncaqlar Azərbaycanın əmtəə bazarına daxil olmamışdan öncə mütləq sertifikatlaşmalıdır. Lakin çox təəssüflər olsun ki, Azərbaycanda satılan oyuncaqların təxminən 40-50 faizi məcburi sertifikatlaşdırmadan keçmir.

Müvafiq qanunvericiliyə görə sertifikatı olmayan malların satışı qadağandır. Belə malların reklamı da qadağandır. İstehlakçının hüququ var ki, malın sertifikatını tələb etsin. Təkcə gigiyenik sertifikatını deyil, uyğunluq sertifikatını tələb etsin və onun məcburi sertifikatlaşmadan keçib keçmədiyini müəyyənləşdirsin. Satıcı isə o sertifikatı alıcıya göstərməyə borcludur. Alıcılar oyuncaq alan zaman bu amillərə əhəmiyyət versinlər.

Çox təəssüflər olsun ki, uşaq oyuncaqları dəyişdirilməyən və qaytarılmayan mallar siyahısındadır. Lakin oyuncağın zavod qüsuru olarsa onu istehlakçı kassa çeki təqdim etməklə dəyişdirə bilər. Valideynlər fikir versinlər ki, uşaqların dünyagörüşünün, immun sisteminin formalaşmasında oyuncaqların böyük rolu var.

Valideynlər uşaqlarının yaşına, istəklərinə və psixologiyasına uyğun oyuncaqlar alsınlar. Təsadüfi deyil ki, başqa ölkələrdə oyuncaqların psixoloji və pedaqoji araşdırması gedir".

***Ayşən Vəli***

# “Brüssel görüşü İlham Əliyev iradəsinin diplomatik qələbəsidir”



***"Fakt budur ki, Brüssel görüşündən sonra Ermənistan tərəfi kimi danışıqlarda hər zamankı kimi öz maraqlarını irəli sürə bilmədi və eyni zamanda, Azərbaycanın təklifləri, şərtləri əsas götürüldü". Bu fikirləri SİA-ya YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov sözügedən mövzu ilə bağlı açıqlamasında bildirib.***

Onun sözlərinə görə, burada ən önəmli məqamlardan biri də ATƏT-in Minsk qrupunun prosesdən kənarlaşdırılması, eləcə də ”status” iddiası ilə bağlı İrəvanın fikir yürüdə bilməməsi reallığıdır: ”Təbii ki, bu uğurlu bir faktordur və ən əsası, bu faktoru işlək vəziyyətə gətirən məhz Prezident İlham Əliyev cənablarının qətiyyətli siyasətidir. Daha dəqiq desək, Qarabağ Azərbaycandır, bu gerçəklik başqa cür qiymətləndirilə bilməz. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, Azərbaycan Qarabağ bölgəsində yaşayan erməni əhalisini öz vətəndaşları kimi görür və onların hər biri yalnız və yalnız Azərbaycan vətəndaşlarının təmin edildiyi hüquqlara malik ola bilərlər. Ermənistan, bu ölkənin baş naziri həmin amili dərk etmək məcburiyyətindədir və hesab edirəm ki, dərk edib də”.

”Halbuki, Nikol Paşinyan dəfələrlə Qərb dövlətləri ilə təmaslarda bu kartı oynamağa cəhd edib. Amma gördüyümüz kimi, artıq Qərb siyasi arenası da onun həmin iddialarından bezib. Əbəs deyil ki, artıq yekun bəyanatda sülh sazişi üzrə danışıqların ATƏT-in Minsk Qrupunun həmsədrliyi çərçivəsində aparılmalı olduğu barədə də heç bir söz yoxdur. Çünki rəsmi Bakı da dəfələrlə qeyd edib ki, Qarabağ münaqişəsi artıq başa çatıb, ona görə də Minsk Qrupu artıq bununla məşğul ola bilməz. Yaxud, Minsk Qrupunun 30 il boyunca görməli işi Azərbaycan 44 gündə həll etdi. Və beləliklə, Brüsseldə aparılan danışıqlar Azərbaycan diplomatiyasının gücünü bir daha göstərdi. Paşinyan nəticə etibarı ilə başa düşməlidir ki, qonşu dövlətlərlə münasibətlərin normallaşması Ermənistana hansısa konkret imkanlarla xarici aləmə çıxmaq şansı verir və nəhayət, Ermənistan bir ölkə kimi xəritədən silinmək təhlükəsindən də xilas olur. Bakı məhz buna çalışır və inanmaq istərdik ki, Azərbaycan tərəfinin apardığı uğurlu diplomatiya da sülhün bərqərar olmasına yönəlib”.

**Rövşən**

# Layihə uğurla icra olunur

Xəbər verildiyi kimi, Azadlıq Hərəkatçıları İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə ”Yurda qayıdış” mövzusunda verilişlərin hazırlanması və nümayiş etdirilməsi” mövzusunda qarant layihəsini həyata keçirməyə başlamışdır. Layihənin keçmiş məcburi köçkünlərin istək və arzularının öyrənilməsi baxımından əhəmiyyətini nəzərə alaraq əməkdaşımız onun icrasının gedişi ilə maraqlanmışdır. Layihənin rəhbəri, Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri, yazıçı-publisist Təhmasib Novruzov əməkdaşımıza layihənin icrası ilə bağlı aşağıdakıları demişdir.

- Bildiyiniz kimi, ötən ilin qrant layihələri çərçivəsində təşkilatımız Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə ”Yurda qayıdış” mövzusunda verilişlərin hazırlanması və nümayiş etdirilməsi” mövzusunda qrant layihəsini həyata keçirir. Layihə 44 günlük hərbi əməliyyatlar nəticəsində otuz ilə yaxın işğalda olan torpaqlarımız düşmən tapdağından azad edildikdən sonra, həmin yurd yerlərinin abadlaşdırılması, keçmiş məcburi köçkünlərin bu yerlərə qayıtması ilə bağlı problemlərin, rəy və arzuların öyrənilməsinə və bunların ümumiləşdirilərək müvafiq dövlət qurumları ilə müzakirə edilməsinə həsr edilmişdir. Ölkə başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, indi qarşıda duran əsas məsələ bu yerlərin yenidən abad diyara çevrilməsinə, sakinlərin doğma yurdlara problemsiz qayıtmalarına nail olmaqdan ibarətdir. Bu baxımdan, hesab edirəm ki, bu və bu kimi layihələrin həyata keçirilməsi dövlət və hakimiyyət strukturlarının Qayıdış Proqramı çərçivəsində apardıqları uğurlu siyasətə vətəndaş cəmiyyətinin dəstəyi kimi qəbul edilməlidir. Layihə fevral ayının əvvəlində icra olunmağa başlamış və artıq uğurla davam etməkdədir. Yeri gəlmişkən, layihənin icra olunmasında bizimlə bərabər onun yüksək səviyyədə həyata keçirilməsi üçün əlindən gələn köməyi əsirgəməyən Qaçqınlarla və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinə, onun QOBUPARK yaşayış massivində yerləşən yerli strukturlarına minnətdarlığımı bildirmək istəyirəm. Çəkilişlərin təşkilində, müvafiq ailələrin seçilməsində, digər məsələlərin həllində komitənin yerdəki strukturları həqiqətən işin keyfiyyətlə icra olunmasında müstəsna rol oynadılar. İmkandan istifadə edib qəzetiniz vasitəsilə başda Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, çox hörmətli Rövşən Rzayev olmaqla bizə bu işdə dəstək verən hər kəsə dərin minnətdarlıq duyğularımı ifadə etmək istəyirəm.




AZADLIQ HƏRƏKATÇILARI İCTİMAİ BİRLİYİ

Layihənin təsdiq olunmuş icra planına uyğun olaraq, işğaldan azad olunmuş yeddi rayonun hər birinə bir veriliş həsr edilməlidir. Artıq Ağdam, Şuşa, Füzuli, Cəbrayıl və Kəlbəcər rayonlarından olan keçmiş məcburi köçkün ailələri ilə görüşlər keçirilmiş, səmimi söhbət əsasında çəkilişlər aparılmış və hazırlanaraq SƏS TV onlayn televiziyasında nümayiş etdirilmişdir. Keçmiş məcburi köçkün ailələri olan Hacı Ramiz Novruzovun, Həsəncanov Almuradın, Allahverdiyev Xasoğlanın, Əvəz Mirzəyevin, Amil Məmmədovun və digərlərinin ailələrində olarkən, insanların Vətən həstrəti ilə necə alışıb-yandıqlarının şahidi olmaq çox qürurverici idir. İnanın, bu insanlara bu gün icazə verilsə, gedib o yurd yerlərində ”palatka” qurub orda yaşayarlar. Yəni evlərin tikilməsini, o yerlərin abadlaşdırılmasını, infrastrukturun yaradılmasını gözləmədən ata-baba ocaqlarına dönmək üçün hazırdırlar. Bununla yanaşı, Azərbaycan dövlətinə, xüsusilə ölkə başçısına sonsuz məhəbbətlərini dönə-dönə ifadə edir və yalnız Prezidentimizin məsləhət bildiyi zaman yurda qayıtmağa hazır olduqlarını ifadə edirdilər.

Həmçinin, keçmiş məcburi köçkünlər bir sıra problemlərlə bağlı fikirlərini, istək və arzularını da söylədilər. Biz bütün çəkilişlər başa çatdıqdan sonra bu istək və arzuları ümumiləşdirərək müvafiq dövlət və hakimiyyət orqanları ilə birlikdə canlı efirdə müzakirə edəcəyik. Yeri gəlmişkən, canlı müzakirə 27 aprel 2022-ci il, saat 17:00-da SƏS TV onlayn televiziyasında baş tutacaq. Mən bütün keçmiş məcburi köçkünləri həmin verilişi canlı olaraq izləməyə, onları maraqlandıran suallarla birbaşa müraciət etməyə dəvət edirəm. İndilikdə görüşdüyümüz ailələr bir sıra ciddi məsələlərə toxunublar. Bunların sırasında yurd yerlərinin əvvəlki formasının saxlanması şərti ilə bərpa edilməsi, məzarlıqların bərpası, yurda qayıdana qədər dünyasını dəyişən insanların doğma yurdlarında dəfn olunmasına şəraitin yaradılması, dağıdılmış müqəddəs dini abidələrin, eləcə də kəndlərin, qəsəbələrin, şəhərlərin tarixi ilə bağlı olan abidələrin bərpa edilməsi ilə yanaşı bu yerlərdə gələcəkdə qaynar həyatın yenidən bərpa edilməsi üçün hansı infrastrukturların yaradılması, Qarabağın və Şərqi Zəngəzurun spesifik iqlim və torpaq şəraiti nəzərə alınmaqla müəssisələrin tikilməsi, heyvandarlığın, arıçılığın, əczaçılığın, üzümçülüyün, tütünçülüyün inkişaf perspektivləri və saire ilə bağlı çox maraqlı fikirlər səsləndiriblər ki, bütün bunların canlı verilişdə müzakirə edilməsi nəzərdə tutulmuşdur.

## "Hraparak" Qarabağla bağlı danışıqları Ukraynadakı vəziyyətlə əlaqələndirib






### *“Top yenidən Rusiyanın sahəsindədir”*

Ermənistanda dərc edilən ”Hraparak” qəzetinin yazdığına görə, Brüsseldən geri qayıdan baş nazir Nikol Paşinyan gecə saatlarına qədər komandası ilə görüşməyib, eləcə də görüşün nəticələri ilə bağlı mətbuata açıqlanmayan məsələlər barədə danışmayıb. SİA-nın məlumatına görə, qəzet həmçinin yazır ki, buna baxmayaraq, Paşinyana yaxınlıqları ilə seçilən şəxslər deputatlara bildiriblər ki, yeni sənəd imzalanmayıb.

”Tərəflər sadəcə 26 noyabr 2021-ci ildə Soçidə əldə edilmiş razılaşmalara əsasən, aprelin sonuna qədər Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyasının aparılması və sərhəddə sabitliyin, təhlükəsizliyin təmin edilməsi üçün ikitərəfli komissiyanın yaradılması istiqamətində hazır olduqlarını bildiriblər”, deyə adıçəkilən nəşr qeyd edir.

”O da qeyd olunub ki, top yenidən Rusiyanın sahəsindədir və aprelin sonunda məlum olduğu kimi, Nikol Paşinyan Rusiya Federasiyasına (RF) işgüzar səfər edəcək və istisna edilmir ki, Vladimir Putinin vasitəçiliyi ilə onun Əliyevlə növbəti görüşü keçiriləcək”, yazan ”Hraparak”, onu da istisna etməyib ki, RF-da hansısa sənəd imzalanacaq. ”Sənədin bizim xeyrimizə, yaxud əleyhimizə olub-olmayacağı RF-nın Ukrayna münaqişəsindəki vəziyyətindən asılı olacaq”, deyə erməni nəşri yazır.

## “Nar” 15 illiyi münasibətilə hədiyyəli yarışlara davam edir!




”Nar” 15 illik yubileyi münasibətilə sosial media səhifələrində hədiyyəli yarışmalarına davam edir. Mobil operatorun ”Hekayəmizin qəhrəmanı sənsən” devizi ilə başlatdığı əyləncəli müsabiqədə bütün ”Nar” abunəçiləri iştirak edə bilərlər. 18 aprel tarixinədək davam edəcək yarışmada abunəçiləri ”Xiaomi Mi Electric Scooter Pro 2”, ”JBL Quantum 600”, ”JBL Flip 5” kimi dəyərli hədiyyələr qazanmaq fürsəti gözləyir.

Müsabiqənin qaydaları ilə tanış olmaq və fürsətlərdən yararlanmaq üçün ”Nar”ın rəsmi sosial media səhifələrini(Facebook”, ”İnstagram” və ”Twitter”) izlədiyinizdən əmin olun.

”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. ”Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

# Batan Ermənistan xilas yolu axtarışında: Rusiya amilindən doğan təlaş və Qərbin qəzəbi



### Razmik Akopcanyan: "Biz tam şəkildə batmaqda olan Rusiyaya dəstək göstərənlərin içində ola bilərik"

Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlarına görə çoxsaylı beynəlxalq dairələr, təşkilatlar və eləcə də ayrı-ayrı Qərb dövlətləri tərəfindən çoxsaylı sanksiyalara, qətnamələrə məruz qoyulması uzun illərdir Moskva ilə strateji plan üzrə iqtisadi və hərbi müttəfiqlik edən, eyni zamanda, Rusiyanın Cənubi Qafqazdakı forpostu rolunu oynayan İrəvanı ciddi şəkildə narahat etməyə başlayıb. Artıq Ermənistandakı analitik mərkəzlər, media qurumları məhz bir sual üzərində dayanırlar və hələ də bu suala cavab tapa bilmirlər - Ermənistan nə etməlidir?

SİA xəbər verir ki, sözügedən mövzu ilə bağlı erməni analitiki və siyasi yazarı Razmik Akopcanyan məqalə ilə çıxış edib. Armenianreport saytı vasitəsi ilə çıxış edən erməni analitikinin fikrincə, ermənilər üçün hər şey ilk baxışdan da çox pis vəziyyətdədir. Müəllif etiraf edir ki, strateji müttəfiqləri olan Rusiya sürətlə dibə doğru batmaqdadır və onun Ermənistanı da özü ilə birgə çəkib-aparması riski nəhəngdir. SİTAT: "Mən rəngləri qatılaşdırmaq istəmirəm, sağlam düşüncəni qorumağa çalışıram ki, bu da mövcud vəziyyətdə elə də asan məsələ deyil. Hər şey çox tez dəyişir. Xüsusilə, Buça, İrpen və Mariupoldan sonra. "The New York Times" qəzeti Nebeznyanın (Rusiyanın BMT-dəki xüsusi nümayəndəsi-R.R.) çıxışına qədər Buçanın peyk vasitəsi ilə çəkilmiş şəkillərini dərc etdi və analiz edərək belə nəticəyə gəlmək olar ki, küçələrdəki cansız bədənlər rusların şəhərə nəzarət etdikləri vaxtlardan qalıblar. Ən əsası isə dünyanın müxtəlif ölkələrindən olan jurnalistlər bütün bunları öz gözləri ilə görə bilərlər".

### Erməni müəllif bütün Qərbin belə düşündüyünü, mövcud vəziyyətə görə Rusiyanı qarşıda ağır situasiyalar gözlədiyini və buradan Ermənistanın da pay alacağını yazır

Erməni müəllif belə bir fonda Rusiyanın BMT-dəki nümayəndəsi Vasili Nebeznyanın danışdıqlarının dünyanı daha da qəzəbləndirə biləcəyini yazır. SİTAT: "Ukraynanın Buça şəhərində dinc əhalinin qətlə yetirilməsi "Rusiyaya siyasi təzyiqin göstərilməsinə, Rusiya hərbçilərinin diskreditasiyasına və dehumanizləşdirilməsinə qarşı hazırlanmış növbəti təxribatdır. "Təxribatın" arxasında Kiyev hakimiyyəti və onun "Qərb sponsorları" dayanır", deyə o (Nebeznya - R.R.) iddia edir."

Razmik Akopcanyan analitik yazısında Nebeznyanın açıq şəkildə yalan danışdığını bildirir və əlavə edir ki, artıq Rusiya tərəfinin rəsmi nümayəndələri tərəfindən deyilənlər ümumiyyətlə, yalanlardan ibarətdir. SİTAT: "Artiq Böyük Britaniyanın xarici işlər naziri Liz Trass bəyan edib ki, Rusiya BMT-nin insan hüquqları şurasına olan üzvlüyündən kənarlaşdırılmalıdır. "Bizim hər birimiz Buçadakı səhnədən dəhşətə gəlmişik. Açıq-aydın şəkildə görünür ki, orada hərbi cinayətlər törədilib", deyə Trass bildirib və əlavə edib ki, London Beynəlxalq cinayət məhkəməsində ədalətin qələbə qazanmasını istəyir. Və bu cür yalnız onun özü hesab etmir..." Erməni müəllif bütün Qərbin belə düşündüyünü, mövcud vəziyyətə görə Rusiyanı qarşıda ağır situasiyalar gözlədiyini və buradan Ermənistanın da pay alacağını yazır. "Və biz tam şəkildə batmaqda olan Rusiyaya dəstək göstərənlərin içində ola bilərik. Bütün gözlənilən nəticələrə görə", deyə Akopcanyan bildirir.

### "Türkiyə və Azərbaycan Rusiya ilə müttəfiqlik münasibətlərimizi bəhanə edərək bunu Ermənistana qarşı istifadə edəcəklər"

Müəllif ABŞ dövlət departamentinin rəsmisi Ned Praysın da bənzər bəyanatlarını xatırladaraq bildirir ki, bu gün Rusiyanın hərbi əməliyyatlarına dəstək göstərənlərə qarşı maliyyə və silah yardımları da göstərilməyəcək. Və beləliklə, mövzunu Ermənistanın üzərində cəmləşdirən erməni analitiki əsas riski qeyd edir.

SİTAT: "Burada risk ondadır ki, Türkiyə və Azərbaycan həmin anı Rusiya ilə müttəfiqlik münasibətlərimizi bəhanə edərək Ermənistana qarşı istifadə edəcəklər. Böyük Britaniya da tamamilə rəsmi Bakının maraqlarından çıxış edəcək. Biz Londonun aşkar antierməni mövqeyini dəfələrlə görmüşük. Bundan əlavə, informasiyalar var ki, Polşa, Latviya, Litva və Estoniya Rusiyadan izolə olunmaq üçün bütöv bir prosesə başlayacaqlar. Ukrayna tərəfi hələ ötən həftə rəsmi şəkildə həmkarlarına müraciət edərək Rusiya Federasiyasına və Belarus Respublikasına gedən avtomobil yollarını bağlamağı xahiş etmişdi. Reaksiya dərhal oldu. Qalır nəticəni gözləmək. RF və BR ilə sərhədlərin tamamilə bağlanması onu göstərir ki, avtomobil rabitəsi və bütün nəqliyyat daşımaları mümkünsüz olacaq. Üstəlik, Litva Rusiyadakı səfirini geri çağırır. Həmçinin, Litva hökuməti Rusiyanın səfirinə ölkəni tərk etməyə çağırıb və Rusiyanın Klaypedadakı konsulluğunu bağlayır.

İtaliya hökuməti onlarla rus diplomatlarını ölkədən çıxarmaq niyyətindədir... Bildirilir ki, müvafiq addım İtaliya hakimiyyətinin Fransa və Almaniya hökumətlərinin birgə rəyləri nəticəsində atılır".

Erməni müəllif bu məlumatların hər birinin bilavasitə ölkəsinə də təsir edəcəyini proqnozlaşdırır və Rusiyanı gözləyən mümkün çöküş ehtimallarının Ermənistanı da əhatə edəcəyini etiraf edir. "Bax belə xəbərlərdir... Onları oxuyarkən başını tutursan və bir sualı verirsən - Ermənistan nə etməlidir? Məndə bu sualın cavabı yoxdur. Qalır bircə dua etməyə ki, dünyanın Rusiyaya olan qəzəbi bizim üçün faciəli nəticələrə hətirib-çıxarmasın", deyə Razmik Akopcanyan yazır.

**Rövşən RƏSULOV**

QEYD: Lakin son olaraq erməni analitikinə təlaşlı şəkildə ölkəsini nə gözləməsi ilə bağlı verdiyi sualının cavabını verməyi düşündüm. Məsələn, həmin suala cavab olaraq belə ifadə etmək olar ki, Ermənistanın bu günə qədər olan bütün rəhbərlikləri zamanında düzgün siyasət yürüdə bilmədiklərinə görə hazırda bax bu cür çıxılmaz dalana dirənərək qalıblar və ölkələrini batmaqda olan gəmi kimi görürlər. Və Ermənistanın belə bir çətin situasiyaya sürüklənməsinin daha bir faktoru bu ölkənin qonşularına qarşı ərazi iddiaları ilə çıxış etmək xəstəlikləridir. Əgər zamanınsa bu xəstəliklərini müalicə etsəydilər, indi "Ermənistanı hansı aqibət gözləyir?" sualını da verməzdilər.

Ancaq Ermənistanın hələ də çox cüzi, hətta iynənin saplaq deşiyi qədər olsa da, çıxış yolu qalmaqdadır - uzun illərdir tətbiq etdiyi yanlış siyasətindən əl çəkməklə özünə yeni qlobal mühit fonunda çəki-düzən vermək və bu vasitə ilə buraxdığı səhvlərini etiraf etmək, layiq olduğu vəziyyəti ilə barışaraq bir daha həmin səhvlərini təkrarlamamaq. Bəlkə onda Ermənistan iynənin saplaq deşiyindən ala biləcəyi azacıq nəfəslə özünü xilas edə bilər. Amma edə biləcəkmi? Bunu da yaxın zamanlarda müşahidə edəcəyik.

ANALİTİK - AKTUAL

# "Erməni cəmiyyəti növbəti "Brüssel fəlakəti"ni yaşadı"

***"Ötən ilin noyabrında Soçidə keçirilən üçtərəfli görüşdə Ermənistanın ciddi müqavimətini qıran Azərbaycan Prezidenti dövlətimizin maraqlarına xidmət edən qərarların qəbuluna nail oldu". Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.***



Abutalıb Səmədovun sözlərinə görə, imzalanan bəyanatda ilin sonuna qədər delimitasiya üzrə ikitərəfli komissiyanın yaradılması nəzərdə tutulurdu: "Lakin öz "şakərinə" sadiq qalan ermənilər razılaşmanın icrasına mane olmaq üçün sərhəddə təhlükəsizliklə bağlı yeni "ideyalar" ortaya qoydular. Qonşularımız delimitasiya komissiyasının yaradılması tələbinin yerinə yetirilməsini pozmaq üçün hərbi qüvvələrin durduqları yerdən "sinxron" çəkilməsi "təklifi"ni irəli sürdülər. Təbii ki, bu "təklif" Azərbaycan rəhbərliyi tərəfindən qəbul edilmədi və birmənalı şəkildə ifadə olundu ki, imzalanan bəyanata görə, əvvəlcə komissiya yaradılmalıdır. Delimitasiya işlərini sürətləndirmək məqsədilə ikitərəfli komissiya qarşıya çıxan problemləri həll edə və ehtiyac olarsa, "sinxron çəkilmə" təklifinə də baxıla bilər. Qərbdəki havadarlarına güvənən ermənilər inad göstərməkdə və "Soçi bəyanatı"nın tələblərini pozmaqda davam etdilər. Nəticədə, komissiyanın yaradılması azı 4 ay gecikdi. Ermənistanın mahiyyətini bütün dünyaya göstərmək və onun qeyri-konstruktiv mövqe tutduğunu hamıya sübut etmək üçün Azərbaycan diplomatiyası "hücum taktikası"nı davam etdirərək "sülh sazişi"nin imzalanmasını təmin etmək üçün beynəlxalq hüquqa və imzalanmış üçtərəfli bəyanatlara uyğun təkliflərini qarşı tərəfə təqdim etdi".

Abutalıb Səmədov bildirib ki, Ermənistan əvvəlcə təkliflərdən imtina etmək istədi: "Ancaq xaricdəki "başbilənləri" anlatdılar ki, bu təkliflərdən imtina etmək dünya birliyi tərəfindən beynəlxalq hüquqa və Ermənistanın öhdəliklərinə "sayqısızlıq" kimi qiymətləndirirlər, erməniləri çətin vəziyyətə sala bilər. Bir neçə gün davam edən "məşvərət"dən sonra elan olundu ki, Ermənistan təklifləri qəbul edir və "sülh sazişi" üzərində işləməyə hazırdır. Ancaq təklif edir ki, sazişə "Dağlıq Qarabağın statusu" da salınsın və danışıqlar Minsk qrupu çərçivəsində aparılsın. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təklifini qəbul edən N.Paşinyan Brüssel danışıqlarına məhz bu şərtləri qəbul etdirmək ümidi ilə yola düşdü və növbəti dəfə "diplomatik uğursuzluq"la üzləşdi. "Güvəndiyi dağlara qar yağan" Ermənistan baş naziri yaxın günlərdə "delimitasiya komissiyası yaratmaq və "sülh sazişi"nin hazırlanması üçün xarici işlər nazirlərinə tapşırıq vermək" öhdəliklərini götürmək məcburiyyətində qaldı. Danışıqlarda 30 yaşı bu günlərdə tamam olan "Minsk qrupu"nu gündəmə gətirmək cəhdləri uğursuzluqla nəticələndi. Şarl Mişelin elan etdiyi bəyanatda münaqişəni nizamasalmanın "veteranı" yada salınmadı, ötən illər ərzində göstərdiyi "cahanşumul xidmətlərə" görə heç olmasa bir "molodes"ə belə layiq görülmədi. Əvəzində Azərbaycanın tələbləri Bəyanatda öz əksini tapdı və təklif etdiyimiz gündəlik Avropa İttifaqı tərəfindən bütünlüklə qəbul olundu. Nəticədə, son illər dalbadal "şoklar" yaşamağa adət etmiş erməni cəmiyyəti növbəti "Brüssel fəlakəti"ni də yaşadı və "Azərbaycan "Minsk qrupu"nu güvəndiyimiz Avropada torpağa gömdü"-qənaəti ilə sarsıldı. Prezident İlham Əliyev Ermənistanın əsas havadarlarının "meydanında" ciddi diplomatik uğura imza atdı. Qələbənin sevincini yaşamaq hər birimizin, ilk növbədə, diplomatiyamızın ən təbii haqqıdır. Ancaq qətiyyən arxayınlaşmaq, hər şeyin bitdiyini, bütün problemlərin arxada qaldığını düşünmək haqqımız yoxdur. Unutmamalıyıq ki, ermənilərin "Minsk qrupu"na süni nəfəs vermək, "status nağılları"nı yenidən dövriyyəyə buraxmaq cəhdləri hələ bitməyib və Yerevana qayıdan kimi hökumətin iclasını keçirən N.Paşinyan da bu barədə bəyanat verib. Həm erməni baş nazirin söylədikləri, həm də ATƏT-in sədarətinin Brüssel danışıqlarında "sülh sazişi" hazırlanması prosesinin işə salınmasını alqışlaması və hər cür dəstək verməyə hazır olduğunu" bəyan etməsi göstərir ki, Minsk qrupu asanlıqla meydanı tərk etməyəcək və onun erməni maraqlarına xidmət göstərmək cəhdləri davam edəcək. Bu cəhdlərin qarşısını almaq üçün hamımız sayıq olmalı, milli birliyi təmin etməli və dövlət başçımıza əlimizdən gələn köməyi göstərməliyik".

***Gülyana***

***Postsovet məkanı üzrə ekspert, rusiyalı publisist və ictimai xadim Dmitri Verxoturov "Caliber" analitik mərkəzinə müsahibəsində Azərbaycan-Ermənistan sülh danıqlarının gedişi, tərəflərin vəziyyəti və regionda mövcud vəziyyətlə bağlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafi Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rus ekspert: "Ermənistanın heç bir seçimi yoxdur, Qarabağ dastanı bitmişdir"

## Dmitri Verxoturov: ATƏT-in Minsk Qrupu 2020-ci ilin noyabrında hərbi əməliyyatla birlikdə başa çatıb




***- Brüssel raundunu necə qiymətləndirirsiniz? Bu, Ermənistan-Azərbaycan münasibətlərinin real münaqişədən sonra nizamlanmasına təkan olacaqmı?***

- Mən həmişə sualı praktiki nöqteyi-nəzərdən çevirməyə üstünlük verirəm. Bəs Ermənistanın seçimi varmı? Yoxsa onun başqa variantları var? Yox. Ona görə də Ermənistanın Azərbaycanla münasibətlərini tənzimləməsi ən məntiqli və ən arzuolunan addım olardı.

***- Bakının sülh razılaşması üçün 5 baza təklifi İrəvan tərəfindən qəbul edilib, bəs onları Ermənistan tərəfi həyata keçirəcəkmi?***

- İrəvana ünvanlanan 5 əsas təklifdən danışsaq, mahiyyət etibarı ilə onlar Qarabağ dastanının bununla bitdiyi ilə nəticələnir. Və bu mühüm amildir. Brüsseldə baş verənlərə baxsaq, görünür, İrəvan o qədər püxtələşib ki, Qarabağ dastanı görünür, nəhayət onun üçün bitib. Ona görə də, müvafiq olaraq, bəyanatlarda Qarabağın "statusu" ilə bağlı heç nə demir. Bu baxımdan müzakirə ediləcək bir şey yoxdur.

***- Brüssel İrəvanda israrla dirçəldilməyə çalışılan ATƏT-in Minsk qrupunun adını çəkmir. Nə deyir?***

- Bir sözlə, ATƏT-in Minsk Qrupu 2020-ci ilin noyabrında hərbi əməliyyatla birlikdə başa çatıb. Ona görə də Minsk qrupu formatında danışıqlar aparmaq absurd və gülüncdür. Əslində bunu Brüssel danışıqlarının nəticəsi də təsdiqlədi.

***- Ermənistan tərəfi vaxtaşırı Azərbaycan ordusunun mövqelərini atəşə tutur. Davam edən təxribatlar fonunda dinc yanaşı yaşamaqdan danışmağa dəyərmi?***

- Yadda saxlamaq lazımdır ki, erməni tərəfi monolitlikdən uzaqdır və müxtəlif maraqları və müvafiq olaraq fərqli baxışları olan bir sıra qruplardan ibarətdir. Ermənistanda həm sülh tərəfdarları, həm də müharibənin davam etdirilməsinin tərəfdarları var, eyni zamanda ən inadkar radikallar da var. Ona görə də kimin, hansı məqsədlə atəş açması önəmlidir. Əgər biz siyasi müstəvidə danışıqlar aparırıqsa, o zaman hesab edirəm ki, biz bu mərmilərə diqqət yetirib, onları hansısa mühüm faktor kimi qələmə verməməliyik, çünki Ermənistan hakimiyyəti onların çoxuna nəzarət edə bilmir.

***- Azərbaycanla Ermənistan arasında Rusiyanın iştirakı ilə sülh müqaviləsinin imzalanmasının vaxtını təxmin edə bilərsinizmi?***

- Tərəflər nə vaxt sülh müqaviləsi imzalayacaqlar, bunu demək adətən çətindir, çünki çoxlu müxtəlif vəziyyətlər yarana bilər. Amma mən hələlik bu prosesə mane olacaq hər hansı faktor görmürəm. Yəqin ki, danışıqlar prosesində iştirak edən bütün tərəflər, o cümlədən Rusiya belə bir sənəddə maraqlıdır.

***- Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrovla görüşmək üçün Moskvaya səfərə gedir. Sizcə, nə məqsədlə?***








- Ermənistan XİN rəhbərinin Moskvaya səfəri tamamilə başa düşüləndir və göz qabağındadır, ona görə ki, erməni tərəfi xarici siyasət addımlarını Moskva ilə razılaşdırıb, onların razılığını, hətta müəyyən formada icazə almalıdır. Aydındır ki, Azərbaycanla sülh müqaviləsinin imzalanması kimi ciddi addımı Moskvada nəzərdən keçirmək lazımdır. Bunlar artıq regional siyasətin xüsusiyyətləridir. Yaranmış ümumi vəziyyəti nəzərə alsaq, Moskvanın Ermənistan-Azərbaycan sülh sazişinin bağlanmasına, xüsusən də təklif olunan formatda hansısa formada mane olacağını düşünmürəm. Təbii ki, bu, Rusiyanın müttəfiqi kimi Ermənistanın maraqlarını pozur, lakin indi vəziyyət hesablaşmanın təşkili üçün uyğun deyil. Əksinə, hesab edirəm ki, Rusiyanın sülh müqaviləsinin bağlanmasında iştirakı, mövcud vəziyyəti nəzərə alaraq, beynəlxalq aləmdə siyasi mübarizənin davam etdirilməsi öz əlindədir.

***- Ermənistan-Türkiyə münasibətlərinin normallaşması barədə nə deyə bilərsiniz?***

- Hesab edirəm ki, Azərbaycanla danışıqlar başa çatdıqdan və onunla sülh müqaviləsi imzalanandan sonra bu, məntiqli olardı. İstənilən halda Ermənistanın milli maraqlar baxımından faydalıdır. Aydındır ki, hər cür radikallar, müstəqil qruplar buna qarşı olacaq, amma anlamaq lazımdır ki, Ermənistanın dövlət və xalq olaraq ayrı-ayrı şəxslərin deyil, öz maraqları var. Komunikasiyalar və ticarət həmişə faydalıdır, ona görə də Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsi üçün hər cür şans var.

*Tərcümə - Elçin Bayramlı*

SON SƏHİFƏ
SƏS
9 aprel
2022-ci il

# Canan Karatay dünyanın ən sağlam qidasını açıqladı

***Türkiyəli həkim Canan Karatayın sözlərinə görə, ravənd sağlamlıq üçün çox faydalı olduğundan, pəhriz zamanı istifadə olunan ən sağlam qidalardan biridir. Saglamolun.az medicina.az-a istinadla xəbər verir ki, məşhur professor Karatay müsahibəsində ravənd bitkisinin dünyanın ən yaxşı qidası olduğunu açıqlayıb.***



Qırxbuğumkimilər fəsiləsinin rəvənd cinsinə aid bitki növü antioksidantlarla zəngindir (onun tərkibində A, B1, B2, C, E, K vitaminləri var), nəticədə o, orqanizmin iltihaba qarşı müdafiəsini yaxşılaşdırır və immun sistemini gücləndirir. Həmçinin, zəngin bir vitamin mənbəyi olan ravənd həddindən artıq iş və enerjinin azalması zamanı stresə daha yaxşı davam gətirməyə kömək edir.

Canan Karatay əlavə edib ki, ravənd əsaslı içkilər yüksək təzyiqin qarşısını almaqda faydalıdır. Həmçinin, tərəvəz qan şəkərinin səviyyəsini aşağı salmağa kömək edir, həzmə müsbət təsir göstərir və qəbizliyin qarşısını alır.

"Soğanı doğrayın və bir az yağda qızardın. Ravəndin 4-5 sapını kəsin, soğana əlavə edin, zövqə görə duz qatıb, qarışdırın. Ravəndin çox qızarmasını gözləmədən, yumurta vurun və odda bir az daha saxlayın" - deyə mütəxəssis tövsiyə edib.

# İnsanlarda qumar asılılığı nədən irəli gəlir?



*"Ümumiyyətlə, insanın hər hansısa bir şeydən asılılığı qarşısına qoyduğu məqsəddən irəli gəlir. Bu məqsədin nəticəsinin dərk edilməsi dedikdə isə insanın şüurlu şəkildə atdığı addımı nəzərdə tutulur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.*

Onun sözlərinə görə, qumar asılılığı insanın qarşıya qoyduğu məqsəddən irəli gəlir: "Mən bugün uduzdum, amma sabah udacam", "Mümkün deyil mən bunu bacarmayım" düşüncəsi ilə insan özünü təhrikləyir. Bununla da sanki o hədəfinə çatacağını düşünür".

Psixoloq sözlərinə davam edərək həmçinin qeyd edib ki, bütün bunlar insanın məqsədini göstərir: "Lakin bu məqsəd şüurlu deyil, şüursuz addımla qiymətləndirilir. Təbii ki, şüursuz addımlar da daha çox yadda qalır. İnsanın hər hansısa məqamda mənfi nəticələrlə qarşılaşmağı şüursuz addımlarının nəticəsidir. Qumar asılılığı da digər asılılıqlar kimi insanın qarşısına qoyduğu məqsədlərdən irəli gəlir. Asılılıq problemi olan qumarbazlar vaxt keçdikcə mərclərini artırmağa və müflis olmağa meyilli olurlar".

**Ləman Əlizadə**

# Klopp: "Qvardiola dünyanın ən yaxşı məşqçisidir"



*"Liverpul"un baş məşqçisi Yurgen Kloppun fikrincə, hazırda dünyanın ən yaxşı məşqçisi Xosep Qvardioladır.*

Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, "Mançester Siti"dəki həmkarı barədə danışan alman mütəxəssis deyib: "Qvardiola dünyanın ən yaxşı məşqçisidir. Düşünürəm ki, bizim hamımız bu fikirlə razıyıq. Kimsə buna şübhə edirdə, onu başa düşmürəm".

Qeyd edək ki, aprelin 10-da İngiltərə Premyer Liqasının 32-ci turunda "Mançester Siti" öz meydanında "Liverpul"la qarşılaşacaq.

# Ölmüş insana yas tutmaq günahdır?

***"Qurani Kərimin "Rum" surəsində Allah buyurur ki, bu möhkəm dinə bağlanın. Allah bu dini insanlıq fitrəti və insanlığın bulaşıq olmayan vicdanı üzərində kökləyib".***



Bu sözləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov deyib. Onun sözlərinə görə, yəni insan İslam dinini araşdırsa bunlar ona daha aydın olacaq: "Allah insanın fitrətinə uyğun olan heç nəyi qadağan etməyib. Əgər bir insan başqa bir insandan ayrılırsa onun kədərlənməsi yox, kədərlənməməsi anormaldır. Ona görə də İslam dinində dünyadan köçmüş insana yas tutmaq, ifrata varmadan onu yad etmək normal sayılır.

Mircəfər Əyyubov sözlərinə belə davam edib: "Peyğəmbərlər və imamlardan dərs götürsək görərik ki, onlar da öz əzizləri dünyadan köçəndə ağlayırdılar".

**Ayşən Vəli**

# 9 yaşlı qız kolbasadan zəhərlənərək ölüb



Saatlı rayonunda uşaq zəhərlənib. Oxu.Az-ın məlumatına görə, zəhərlənən M.F. 2013-cü il təvəllüdlüdür. O, xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. İlkin ehtimala görə, azyaşlı qız kolbasadan zəhərlənib. Faktla bağlı araşdırma aparılır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3220**